# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

№ 024 (6707) 9 fevral 2023-cü il. Qiymәti 60 qәpik




## Ulu öndərin siyasi kursu Böyük Qayıdışın təməl prinsiplərini təşkil edir

10

## "Bütün Azəbaycan xalqı bu gün qadaş türk xalqının yanındadı"

2



# Aİ-nin "mülki missiyasının" tərkibində 70 nəfər Fransa jandarmı da var!

12



*İddialar təsdiqini tapır - Ermənistan yeni müharibəyə hazırlaşır (?)*

## "Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində"



4

## Dini siyasətə alət edənlər



15

## XƏBƏRDARLIQ: Güclü şaxtalar gəlir!



16

## Xəstəliklərdən qorunmaq üçün necə qidalanmaq lazımdır?





16

## VARDANYAN QAÇDI: kirli portyankaların və tər qoxusu verən uniformaların içində!

Beləliklə, erməni KİV-lərində belə bir informasiya sızıb ki, Rusiyanın Ermənistandakı mövcud Paşinyan iqtidarını devirmək məqsədi ilə hazırladığı və tramplin qismində Qarabağa göndərdiyi Vardanyan layihəsi fiaskoya uğrayıb.



13

# “Bütün Azəbaycan xalqı bu gün qadaş türk xalqının yanındadı”



## *Prezident İlham Əliyev Türkiyənin Azərbaycandakı səfirliyində olub*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib.***

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı dövlətimizin başçısını qarşılayıb.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazıb.

Sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev dedi:

- Sizə bir daha başsağlığı verirəm. Çox böyük bəladır, böyük faciədir. Günahsız insanlar həlak olublar, yaralanıblar.

Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə.

Bu dəhşətli zəlzələ bizi çox sarsıtdı. Yəni, hər birimizə böyük mənəvi əzab verdi. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir.

Bilirsiniz ki, Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni, kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir. Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Mənə verilən məlumata görə, özəl şirkətlər artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda, texniki yardım göstərməyə başlamışlar. Mənim göstərişimlə bizim ən böyük şirkətimiz SOCAR öz dəstəyini verməyə başlayır. Bilirsiniz ki, SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda, Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq.

Bilirəm ki, bizim dövlət qurumlarının nümayəndələri də öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar və bunu biz ancaq alqışlaya bilərik. Yəni, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır.

Mənim göstərişimlə bütün yardım məsələləri bir mərkəzdən idarə olunacaq, Prezident Administrasiyasının rəhbərinə göstəriş verildi. O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi uçun bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və əgər ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq.

Paralel olaraq, böyük bir qrup könüllü artıq yola düşür. Bizim böyük könüllü qruplarımız var - həm Heydər Əliyev Fondunun nəzdində fəaliyyət göstərən könüllülər, həm ASAN könüllüləri, yəni, onlar hər zaman Azərbaycanda bədbəxt hadisə baş verdikdə, - məsələn, bizdə də Şamaxı, Ağsu, İsmayıllıda zəlzələ baş verdikdə, - ilk yardıma yetişən də onlar olmuşlar. Onlar indi hərəkətdədir, yoldadırlar.

Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır. Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir.

Bir daha deyirəm, keçmiş olsun, bütün həlak olanlara Allah rəhmət eləsin, yaxınlarına Allah səbir versin və təbii fəlakətlər olur, heç kim bundan sığortalı deyil. Amma Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda, Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Bu, qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək. Türkiyə dövləti güclü dövlətdir və bu fəlakətlə də mübarizədə öz gücünü göstərir.

x x x

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı dedi:

- Hörmətli cənab Prezident, ziyarətiniz üçün çox təşəkkür edirəm, böyüklük göstərdiniz. Sağ olun, var olun.

Biz bilirik ki, qardaş Azərbaycan ilk dəqiqədən etibarən Sizin tapşırığınızla səfərbər olmuşdur. Təkcə Fövqəladə Hallar Nazirliyi ilə deyil, bütün qurumları, cəmiyyətləri, xalqı ilə səfərbər olmuşdur. Ürəkləri bizim acımızı yüngülləşdirmək üçün döyünmüşdür. Biz bunun şahid olduq, görürük. Çox təşəkkür edirik, sağ olun.

Həqiqətən çox böyük zəlzələ oldu. Türkiyə tarixində ilk dəfə lokal olmayan zəlzələ bizə böyük acı verdi. Ondan çox şəhərə, on milyondan çox insanımıza təsir etdi, itkilərimiz hər gün artır. Allah millətimizə səbr versin və bir daha bizə belə böyük acı yaşatmasın, İnşallah.

Hörmətli cənab Prezident, çox təşəkkür edirəm. Həqiqətən Azərbaycan bir ürək olmuşdur. Xalqımız gücü nəyə çatırsa yardım edir. Yardım üçün çalışan insanların zəhməti sayəsində hazırda yük maşınları yola çıxıb. Həqiqətən minnətdarıq. Bu gün Milli Məclisin sədri hörmətli Sahibə xanım, hörmətli Baş nazir Əli Əsədov və iqtisadiyyat naziri Mikayıl Cabbarov zəng etdilər. Sizin tapşırığınızla qurumlar istər daşıma, istərsə də generator, transformator, xəstəxana ləvazimatlarına ehtiyacla bağlı maraqlanırlar. Biz də onlarla koordinasiya şəraitində işləyirik.

Yaralarımızı sağaltmaq üçün dəstəyinizə görə çox sağ olun. Biz bilirik ki, qardaşıq və bunu ürəkdən yaşayırıq, hiss edirik. Türkiyə də bütün qəlbi ilə Azərbaycana təşəkkürlərini çatdırır, hörmətli cənab Prezident.

*Prezident İlham Əliyev: Sağ olun.*

*Cahit Bağçı: Sağ olun, cənab Prezident*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin abidəsinin açılışında iştirak edib.***

# Prezident İlham Əliyev: Azərbaycanda Tofiq Quliyevin xatirəsi əbədiləşdirilib





AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən Prezident İlham Əliyev dedi:

- Sabahınız xeyir olsun. Bu gün biz görkəmli bəstəkar Tofiq Quliyevin abidəsinin açılışına toplaşmışıq. Şəhərimizin mərkəzində ucaldılan bu abidə Azərbaycan xalqının dahi bəstəkarı Tofiq Quliyevin xatirəsinə olan hörmətinin əlamətidir. Həqiqətən Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir. Tofiq Quliyev həm görkəmli bəstəkar, həm Azərbaycanda caz sənətinin banisi də adlandırıla bilər. Eyni zamanda, böyük mədəniyyət xadimi Tofiq Quliyev Azərbaycan xalqının sevgisini qazanmışdır.

Onun əsərləri doğrudan da bizim böyük sərvətimizdir. Bu əsərlər ölməz əsərlərdir, bu gün də səslənir, bundan sonra da uzun illər ərzində səslənəcək. Çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda, Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır. Tofiq Quliyev öz xalqına çox bağlı idi, onun Azərbaycan, Bakı haqqında əsərləri bunu göstərir. Eyni zamanda, onu tanıyanlar yaxşı bilirlər ki, çox gözəl insan, gözəl ziyalı idi, sözün əsl mənasında, böyük mədəniyyət xadimi idi və öz fəaliyyəti, öz əsərləri, Azərbaycanın ictimai həyatındakı rolu ilə tarixdə öz layiqli yerini tutmuşdur.

Tofiq Quliyevin xatirəsi Azərbaycanda əbədiləşdirilmişdir. Onun yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur, şəhərimizin küçələrindən birinə onun adı verilmişdir, eyni zamanda, musiqi məktəbi də onun adını daşıyır və bu gün bu gözəl abidə ucaldılır. Onu da bildirməliyəm ki, Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə Tofiq Quliyevə Azərbaycanın ovaxtkı ən ali ordeni olan "İstiqlal" ordeni verilmişdir.

Atam Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələri bağlayırdı. Onlar onilliklər ərzində bir-birinə böyük hörmət göstərən insanlar idi. Baxmayaraq ki, Heydər Əliyev Azərbaycanın ovaxtkı Kommunist Partiyasının rəhbəri idi, ondan sonra müstəqil Azərbaycanın Prezidenti idi, Tofiq Quliyev isə ömrü boyu siyasətdən uzaq bir insan idi. O, sadəcə olaraq, öz yaradıcılığı ilə Azərbaycana həm sovet dövründə, həm müstəqillik dövründə o qədər böyük töhfə vermişdi ki, hamımız, hətta onu tanımayanlar da onun obrazını özümüz üçün çox əziz və yaxın tuturduq. Atam isə onu yaxından tanıyan insan kimi bilirdi ki, Tofiq Quliyev nə qədər böyük insani keyfiyyətlərə malik idi.

Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq - biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək.

Mən bu gözəl hadisə münasibətilə, ilk növbədə, Tofiq Quliyevin ailə üzvlərini, Azərbaycan musiqi ictimaiyyətini və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Sağ olun.

x x x

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident, çox sağ olun bu sözlərə görə.

Tofiq müəllim nəinki dahi bəstəkar, dahi ictimai xadim idi, mənim üçün, Polad üçün o, Tofiq əmi idi. Biz ona uşaqlıqdan "dyadya Tofiq" deyirdik.

Əlbəttə, mən piano sənəti ilə məşğul olan bir insanam. Qeyd etməliyəm ki, o, dahi bir pianoçu idi. Çünki Aysberq kimi professor Bakıda, Neyqauz kimi dahi professor Moskvada onun müəllimləri idi. Baxmayaraq ki, Tofiq müəllim gündə iki-üç saat çalmırdı, Akademiyamıza gələndə piano arxasında bir passaj ifa edəndə biz hamımız məəttəl qalırdıq. Praktika ilə heç məşğul olmayan bu insan necə belə dahi bir pianoçu idi.

Əlbəttə, mən xoşbəxtəm ki, son illər o, bizim fəxri professorumuz idi. Hər dəfə Akademiyaya gələndə onun hansısa bir mühazirəsi olmurdu, sadəcə, biz yığışırdıq və Tofiq müəllim musiqi tarixindən, Qara Qarayev, Niyazi, Fikrət Əmirov haqqında əhvalatlar danışırdı, çünki o, canlı bir ensiklopediya idi. Mən çox danışmaq istəmirəm, çünki məndən sonra Polad də danışacaq. Mən, sadəcə, demək istəyirəm xoşbəxtəm ki, onunla təmasda olmuşam. Xoşbəxtəm ki, onun bir çox premyeralarında iştirak etmişəm, atam rejissor kimi, mən də tamaşaçı kimi. Xoşbəxtəm ki, biriki həftə öncə Vyanada konsertdə mən onun məşhur "Qaytağı"sını ifa etdim. Yenə də bütün avropalılar məəttəl qalırlar, bu, nə gözəl əsərdir. Xoşbəxtəm ki, vaxtilə bu əsəri - "Qaytağı"nı mənə həsr edib və indi bütün dünyada pianoçular bu əsəri ifa edirlər.

Yəni, Tofiq müəllim belə insan idi. Ulu Öndər o ordeni ona xəstəxanada təqdim etmişdi, gedib ona baş çəkmişdi və təbrik etmişdi. Bilirsiniz, bu, çox təsirli idi, biz onu həmişə xatırlayırıq.

Fürsətdən istifadə edib sonda Sizə "Çox sağ olun!" demək istəyirəm ki, Bülbülün heykəlini, Rəşid Behbudovun heykəlini, Qara Qarayevin, Fikrət Əmirovun heykəlini məhz Siz açmısınız bizimlə bir yerdə. Biz 1982-ci ilin qışında Şuşada Ulu Öndərlə bir yerdə Vaqifin məqbərəsinin açılışında iştirak edirdik. Çox yaxşıdır ki, 100 il də keçsə, bu insanların heykəlləri duracaq. Tofiq müəllim bax, burada dayanacaq və onun musiqisi bütün dünyada yenə də səslənəcək. Çox sağ olun.

x x x

Xalq artisti, görkəmli bəstəkar Polad Bülbüloğlu çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli xanımlar, cənablar, əziz dostlar.

Əvvəla, dərin təşəkkürümü bildirmək istəyirəm ki, bu gün mənə bu abidənin açılışında söz verilib.

Mənim üçün Tofiq əmi doğrudan da əziz bir insan idi. Çünki uşaqlıqdan bizim evdə mən şahidi olmuşam ki, Tofiq müəllim gəlirdi, - bilirsiniz ki, Bülbül Tofiq Quliyevin bir neçə mahnısını, romanslarını ifa etmişdir, - Fərhad da bizdə olurdu, çox gözəl piano çalırdı. Atam həmişə öz əsərindən başqa ona müraciət edərdi ki, Tofiq bir az çal da, adamın ürəyi açılsın. Doğrudan da elə idi, biz, - Fərhad bunu dedi, - uşaqlıqdan ona Tofiq əmi deyirdik. Mən çox şadam, xoşbəxtəm ki, ömür boyu bu insanla çox sıx təmasda olmuşam.

1960-cı illərdə Tofiq müəllim Filarmoniyanın bədii rəhbəri və direktoru idi. Biz gənc bəstəkar idik, o, bizə çox kömək edirdi, bizim əsərlərimizi alırdı, yəni, maddi yardım edirdi, bizə yol göstərirdi, tövsiyələrini verirdi. Ancaq mənə yox, bütün o nəslin, o cavan bəstəkar nəslinin, demək olar ki, mənəvi atası kimi. Ümumiyyətlə, bilirsiniz bəstəkarlar çox qısqanc olurlar, musiqiçilər də qısqanc olurlar. Amma Tofiq müəllim elə deyildi, Tofiq əmi elə deyildi. O, digərlərinin uğurlarına da çox sevinirdi. Onun mahnıları ölməzdir, ona görə ki, onlar insanın daxilindən, qəlbindən, saflığından gəlir. Ona görə onun mahnılarını milyonlarla insan sevir və burada deyildiyi kimi, bu mahnılar, onun əsərləri daim yaşayacaqdır. Ona görə ki, o, insan kimi də gözəl insan idi və böyük musiqiçi idi, böyük bəstəkar idi, böyük pianoçu idi.

Hörmətli Prezidentimiz dedi, doğrudan da mən onun şahidiyəm, bizim Ulu Öndərimiz, böyük insanımız Heydər Əliyev Tofiq müəllimə xüsusi münasibət bəsləyirdi. Mənə nəsib olub, o vaxt Heydər Əliyev rayonlarda böyük müşavirələr keçirirdi və oraya gedəndə həmişə yaradıcı insanları da dəvət edirdi – bəstəkarları, rəssamları, yazıçıları, ifaçıları və bizə deyirdi ki, mən sizi buraya gətirirəm ki, əvvəla, siz bir az millətə, xalqa yaxın olasınız, ikincisi də xalq sizi görsün. Radioda eşidirlər, televizorda görürlər, amma sizi canlı görmək, onlar üçün daha xoşdur. Orada da biz görürdük ki, Heydər Əliyevin Tofiq Quliyevə xüsusi münasibəti var. Sonra mən nazir işləyəndə bir neçə dəfə bu haqda söhbətlər olub. Bilirsiniz ki, sonra Tofiq əmi Bəstəkarlar İttifaqının birinci katibi idi və onda da bəstəkarlara çox böyük yardım, çox böyük kömək edirdi.

Onu da qeyd edim ki, Tofiq müəllim çox yaxşı təşkilatçı idi. Bakıda böyük tədbirlər keçirirdi. Filarmoniyada olanda dünyaşöhrətli musiqiçiləri dəvət edirdi, onların konsertlərini təşkil edirdi, Bəstəkarlar İttifaqında plenumlar, qurultaylar, müxtəlif tədbirlər keçirirdi. Həmişə onun təşkil etdiyi tədbirlər çox yüksək səviyyədə keçirdi.

Hörmətli cənab Prezident, Fərhad da dedi, mən də öz tərəfimdən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm ki, doğrudan bizim Azərbaycanın paytaxtında, Bakı şəhərində xalqımızın xəzinəsi olan gözəl insanlara abidələr qoyulur. Həyat elə qurulub ki, əvvəl-axır biz hamımız bu dünyadan köçəcəyik. Tələsmək lazım deyil, amma əvvəl-axır olacaq. Amma bu abidələr həmişə qalacaq və Azərbaycan xalqının görkəmli insanlarını bütün dünyaya tanıtdıracaq. Məncə, bu gün Tofiq əminin ruhu şad olmalıdır. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

x x x

Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə çıxış edərək dedi:

-Hörmətli cənab Prezident, hörmətli tədbir iştirakçıları.

Mən Tofiq müəllim barədə bir neçə kəlmə demək istəyirəm. Mən onu xatırlayıram, onun barəsində demək olar ki, o, Azərbaycanın müasir musiqisinin, Azərbaycanın müasir estrada musiqisinin banilərindən biri olub. Hörmətli Prezidentimizin dediyi kimi, o, doğrudan da Azərbaycan cazını da böyük məharətlə təbliğ etmişdir. Demək istəyirəm ki, xatırlayıram, 1950-ci illərin ortalarında Azərbaycanda belə bir bum yaranmışdı və yeni bir mədəniyyət yaranırdı. O dövrdə gözəl ifaçılar var idi. Rəşid Behbudov Tofiq Quliyevin əsərlərini ifa edirdi və həmin əsərlər Bakıda geniş yayılmışdı. Biz cavanlar o əsərlərdən qidalanaraq yeni bir mədəniyyətə qovuşurduq.

Mən hörmətli Prezidentimizə demək istəyirəm ki, çox sağ olun, Siz bizə - incəsənət xadimlərinə belə yüksək münasibət göstərirsiniz. Çox sağ olun, cənab Prezident.

x x x

Tofiq Quliyevin qızı Lalə Quliyeva çıxış edərək dedi:

-Hörmətli cənab Prezident.

İcazə verin, atamın xatirəsinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə ailəmiz, doğmalarımız və yaxınlarımız adından təşəkkür edim. Bakıda və Şuşada küçələr, paytaxtın ən yaxşı musiqi məktəblərindən biri onun adını daşıyır, Birinci Fəxri xiyabanda gözəl abidəsi və yaşadığı evin divarında barelyefi qoyulub. Heydər Əliyev Fondu tərəfindən bəstəkarın 100 illik yubileyi ilə bağlı yaradıcılıq irsinin bərpası və qorunub saxlanması istiqamətində çox böyük iş görülüb. Onun əsərlərinin nəfis tərtibatda not və audioyazıları, kitablar nəşr olunub. Tofiq Quliyevin ad günündə Heydər Əliyev Mərkəzində təntənəli konsert təşkil edilib. İndi isə bizim hörmətli Prezidentimizin Sərəncamına əsasən, Tofiq Quliyevin 105 illik yubileyi ilə bağlı abidəsi ucaldılıb. Siz qeyd etdiyiniz kimi, bu abidənin "Heydər Əliyev İli"ndə açılması əlamətdardır və rəmzi məna daşıyır. Çünki onlar hələ gənc ikən Naxçıvanda tanış olub və ömürlərinin sonunadək dostluq ediblər.

Daha bir xatirə. Azərbaycan üçün çətin olan 1992-ci ildə atamın 75 illik yubileyi keçirilirdi. O, səhnədə çıxış edərkən demişdi ki, bu konsertin Qarabağda, Şuşada keçirilməsi onun ən böyük arzusudur. Təəssüf ki, o, bu günləri görmədi. Lakin onun musiqisi və mahnıları artıq işğaldan azad olunmuş Şuşada keçirilən birinci "Xarıbülbül" festivalında səsləndi. Əziz Prezidentimiz, atamın, bütün Azərbaycan xalqının arzusu məhz Sizin sayənizdə çin oldu. Hər şey üçün çox sağ olun!

x x x

Sonra Prezident İlham Əliyev Tofiq Quliyevin ailə üzvləri, mədəniyyət və incəsənət xadimləri ilə söhbət etdi.

Onlar Azərbaycanda mədəniyyət və incəsənət sahəsinə göstərdiyi yüksək diqqət və qayğıya, eləcə də Bakının mərkəzində Tofiq Quliyevin abidəsinin ucaldılmasına görə dövlətimizin başçısına bir daha minnətdarlıqlarını bildirdilər.

# “Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində”

***Fevralın 8-də "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində" mövzusunda konfrans keçirilib.***

YAP Mərkəzi Aparatının inzibati binasında keçirilən tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Konfransda giriş nitqi ilə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov xatırladıb ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında ”Heydər Əliyev İli” elan edilmişdir. Təsdiq olunmuş Tədbirlər Planına əsasən Ümummilli Liderin zəngin



## YAP Mərkəzi Aparatında bu mövzuda konfrans keçirilib

də bu baxımdan xüsusi vurğulanmalıdır”,- deyən Tahir Budaqov vurğulayıb ki, gender siyasəti Heydər Əliyevin demokratik, hüquqi dövlət və müasir cəmiyyət quruculuğunun, insan hüquqları və azadlıqlarının qorunması siyasətinin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Gender bərabərliyi üçün hüquqi bazanın və ictimai-siyasi əsasların yaradılması, qadın hüquqlarının qorunması və qadınların cəmiyyət həyatının müxtəlif sahələrində yüksək fəallığının təmin olunması vacib prioritetlərdən biri kimi müəyyənləşdirilmiş, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, ”Azərbaycan qadını öz ağlı, zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə bizim xalqımızı, millətimizi daim ucaldıbdır”,- deyən Heydər Əliyev hələ sovetlər birliyi dönəmində respublikamıza rəhbərlik etdiyi vaxt gender bərabərliyinə, qadınların elm, təhsil, mədəniyyət və digər sahələrdə rolunun artırılmasına, idarəetmənin müxtəlif istiqamətlərində fəal təmsil olunmasına xüsusi diqqət yetirmişdir. Eyni zamanda, öz üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirərək respublikanın inkişafına layiqli töhfələr verən qadınların səmərəli fəaliyyətinin davamlı olması üçün Heydər Əliyev önəmli stimullaşdırıcı tədbirlər həyata keçirmişdir. Peşə fəaliyyətində fərqlənən qadınların mükafatlandırılması, müxtəlif adlarla təltif olunması və bir sıra digər






həyat yolunun və müstəsna fəaliyyətinin bütün mərhələlərinin dərindən öyrənilməsi, Heydər Əliyev irsinin və ideyalarının geniş ictimaiyyətə çatdırılması məqsədilə il ərzində ölkə ərazisində və respublikamızın hüdudlarından kənarda çoxsaylı tədbirlər keçiriləcəkdir. Tahir Budaqov vurğulayıb ki, Ulu Öndərin siyasi mirası olan, onun ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçən və tarixi nailiyyətlər qazanaraq ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən ”Heydər Əliyev İli” ilə əlaqədar Tədbirlər Planı hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmişdir: ”Tədbirlər Planı çərçivəsində Heydər Əliyev şəxsiyyətinin müasir dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun tədqiq olunması, müstəqil Azərbaycanın inkişaf yolunun hərtərəfli öyrənilməsi və təbliği məqsədilə il ərzində müsabiqələrin, aksiyaların, görüşlərin, elmi-praktik konfransların və digər bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Xüsusi vurğulamaq istəyirəm ki, Ulu Öndərin ”Nə qədər ki Azərbaycan var, mən də varam” kəlamı ”Heydər Əliyev İli” ilə əlaqədar keçiriləcək bütün tədbirlərimizdə istifadə etmək üçün deviz olaraq seçilmişdir. Çünki Heydər Əliyevin vaxtilə dahiyanə şəkildə ifadə etdiyi bu fikir müasir Azərbaycanın timsalında öz təsdiqini tapır. İstər SSRİ dönəmində, istərsə də müstəqilliyin bərpasından sonra Azərbaycanın inkişaf yoluna nəzər saldıqda görürük ki, ölkəmizin qurtuluşu və tərəqqisi bilavasitə Heydər Əliyevin adı və siyasəti ilə bağlıdır. Azərbaycanın bütün uğurlarında Ulu Öndərin imzası, irsi və ideyaları öz əksini tapmışdır. Heydər Əliyev məqsədyönlü və uzaqgörən siyasət həyata keçirməklə bütün sahələrdə parlaq nailiyyətlərin qazanılmasını təmin edərək yeni Azərbaycan reallığını və ölkəmizin parlaq gələcəyinin etibarlı bünövrəsini yaratmışdır”.

YAP Sədrinin müavini qeyd edib ki, bu gün Ümummilli Liderin şah əsəri və xalqımıza ən böyük mirası olan müasir müstəqil Azərbaycan onun əbədiyaşar ideyaları əsasında möhtəşəm nailiyyətlərə imza ataraq zirvələr fəth edir: ”Bu reallıq Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin Heydər Əliyev irsi və ideyaları ilə bağlı olduğunu birmənalı şəkildə təsdiqləyir. Prezident İlham Əliyevin 2023-cü ilin ölkəmizdə ”Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, ”müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir”.

”Heydər Əliyev İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin birgə təşkilatçılığı ilə ”Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində” mövzusunda keçirilən bugünkü tədbirimiz də Ümummilli Liderin ideya-siyasi xəttinin, zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması baxımından mühüm əhəmiyyətə malikdir. İnkaredilməz həqiqətdir ki, Heydər Əliyev tarixi və siyasi ənənələrə, milli-mənəvi və ümumbəşəri dəyərlərə xüsusi önəm verməklə yanaşı, yenilikçi, mütərəqqi baxışlara əsaslanan çox mühüm təşəbbüslər irəli sürüb, vacib addımlar atıb. Onun xalqımızın zəngin ənənələrinə və dəyərlərinə, dövlətçilik maraqlarına uyğun və dövrün çağırışlarına adekvat cavab verən gender siyasəti addımlar bu baxımdan böyük əhəmiyyətə malik olmuşdur.

Tahir Budaqov söyləyib ki, Ümummilli Liderin müstəqillik dövründə ölkəmizə rəhbərlik etdiyi, sabitlik və inkişaf dönəmi kimi yadda qalan 1993-2003-cü illərdə də milli-mənəvi dəyərlərə, milli maraqlara və mütərəqqi beynəlxalq təcrübəyə əsaslanan məqsədyönlü gender siyasəti həyata keçirilmişdir: ”Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan, 12 noyabr 1995-ci il tarixində keçirilən ümumxalq səsverməsi - referendum nəticəsində qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında gender siyasətinin hüquqi əsaslarının təsbit olunmasını bu kontekstdə xüsusi vurğulamaq lazımdır. Beynəlxalq hüquqi aktlarda və konvensiyalarda təsbit olunmuş əsas insan hüquq və azadlıqlarının yer aldığı Azərbaycan Konstitusiyasında gender məsələləri də öz əksini tapmışdır. Bununla yanaşı, Heydər Əliyevin imzaladığı bir çox fərman və sərəncamlar birbaşa və dolayısıyla qadın hüquqlarının müdafiəsinə yönəlmişdir.

**_Ardı Səh. 5_**

# "Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində"






**Əvvəli-Səh-4**

Müdrik dövlət xadiminin müvafiq fərmanları ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, Qadın Problemləri üzrə Milli Fəaliyyət Planının qəbul edilməsi, Azərbaycanın "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi" Konvensiyasına qoşulması və digər addımlar gender siyasətinin səmərəliliyini təmin etmişdir. Bir sözlə, Heydər Əliyev irsinin tədqiqi deməyə əsas verir ki, Ümummilli Lider çağdaş gender siyasəti həyata keçirməklə mütərəqqi nümunə yaratmış və beynəlxalq birliyə uğurla inteqrasiya edən Azərbaycanın müasir və demokratik dövlətlər sırasında layiqli yer tutmasını təmin etmişdir".

YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, Ümummilli Liderin siyasətini uğurla və inamla davam etdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ənənə ilə müasirliyin vəhdətinə və siyasi varislik prinsipinə əsaslanan strateji kursunda gender bərabərliyinin təmin olunması, qadınların müxtəlif sahələrdə fəallığının və rolunun artırılması kimi məsələlər də mühüm yer tutur: "Bu kontekstdə qanunvericilik bazasının zənginləşdirilməsi, qadınlara dövlət idarəçiliyinin müxtəlif sahələrində etimad göstərilməsi, onların yüksək fəallığı və faydalı təşəbbüslərlə çıxış etməsi üçün geniş imkanların yaradılması, zəruri şərtlər və şəraitin təmin olunması və bir sıra digər tədbirlərin reallaşdırılması dövlət başçısının gender bərabərliyi məsələsini daim diqqətdə saxladığını göstərir. Prezident İlham Əliyevin "Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir" fikri isə onun modern və nümunəvi gender siyasətinin mahiyyətini əks etdirməklə yanaşı, Azərbaycan qadınlarına böyük inam və etimadının bariz ifadəsidir".

Tahir Budaqovun sözlərinə görə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, irəli sürdüyü təşəbbüslər və reallaşdırdığı layihələr də gender məsələlərinin tənzimlənməsi, qadınların hüquqlarının qorunması və ictimai-siyasi fəallığının yüksəldilməsi baxımından müstəsna önəm daşıyır: "Əvvəla qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyeva məhsuldar fəaliyyəti ilə milli-mənəvi dəyərlərə, tarixi ənənələrə sadiq, vətənpərvər və xeyirxah Azərbaycan qadını obrazının formalaşmasında əvəzsiz rol oynamışdır. Onun nümunəvi həyat və fəaliyyəti qadınlar üçün əsl örnək olmaqla yanaşı, zərif cinsin nümayəndələrinin cəmiyyət həyatında rolunun artmasına stimul vermişdir. Adı xeyirxahlıq, vətənpərvərlik anlayışları ilə assosiasiya olunan, milli və bəşəri dəyərlərə bağlılığı ilə fərqlənən, ictimai-siyasi obrazı nümunəvi xarakter daşıyan Mehriban xanım Əliyevanın gördüyü işlər ölkəmizdə olduğu kimi, beynəlxalq miqyasda da yüksək dəyərləndirilir. Ayrı-ayrı dövlətlərin rəsmiləri, nüfuzlu siyasətçilər, tanınmış ictimai xadimlər, alimlər Mehriban xanım Əliyevanın milli məzmunlu, qlobal əhəmiyyətli işlərini təqdir edirlər. Bu isə Birinci xanımın timsalında Azərbaycan qadınının beynəlxalq ictimai rəydə müsbət obrazının möhkəmlənməsini şərtləndirir".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi, ölkənin və Cənubi Qafqaz bölgəsinin ən böyük partiyası olan Yeni Azərbaycan Partiyasının da fəaliyyət konsepsiyasında gender məsələləri önəmli yer tutur və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir: "Yeni Azərbaycan Partiyasının Proqramında gender bərabərliyinin təmin edilməsi və ailə institutunun inkişafının YAP-ın diqqət mərkəzində dayanan əsas məsələlərdən biri olduğu qeyd edilmişdir. Gender əsaslı zorakılıq hallarının qarşısının alınması, əmək bazarında qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsi, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi, ana və uşaqların sosial müdafiəsinin gücləndirilməsi, zorakılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sisteminin təkmilləşdirilməsi kimi məsələlər bu sahənin inkişafı ilə bağlı partiyanın hədəfləri kimi müəyyən olunmuşdur. Ümumiyyətlə, partiyamızın siyasi dinamizmini təmin edən amillərdən biri səmərəli gender siyasətinin həyata keçirilməsi, cəmiyyətin bütün təbəqələrindən olan sağlam düşüncəli və möhkəm əqidəli insanların, o cümlədən müxtəlif sahələrdə səmərəli fəaliyyətə malik qadınların seçiminin Yeni Azərbaycan Partiyası olmasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının qadın nümayəndələri cəmiyyət həyatının və dövlət idarəçiliyinin müxtəlif sahələrində, qanunverici və icra hakimiyyəti orqanlarında uğurla təmsil olunurlar".

"Təqdirəlayiq haldır ki, ali dəyərlərin daşıyıcısı və yüksək mənəviəxlaqi keyfiyyətlərə sahib olan Azərbaycan qadınları milli dəyərlərin və dövlətçilik maraqlarının qorunmasına, milli hədəflərin və strateji prioritetlərin reallaşdırılmasına mühüm töhfələr verirlər. Şübhə yoxdur ki, dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunan zərif cinsin nümayəndələri bundan sonra da öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Ulu Öndərin zəngin dövlətçilik irsi əsasında Zəfər yolunda əmin addımlarla irəliləyən müstəqil Azərbaycanın tərəqqisində vacib rol oynayacaq, onlara göstərilən inam və etimadı doğruldacaqlar" ,- deyə Tahir Budaqov qeyd edib.

Konfransda Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Heydər Əliyev Azərbaycanda gender bərabərliyinin təmin olunması sahəsində milli qanunvericiliyin yaradıcısıdır" mövzusunda təqdimatla çıxış edib. Hicran Hüseynova bildirib ki, bütün varlığı ilə dövlətinə, xalqına xidmət edən ulu öndər Heydər Əliyevin 100 illik yubiley tədbirləri təkcə Azərbaycanda deyil, hətta dünyanın bir çox ölkələrində keçiriləcək. Çünki harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Onu hörmət və qürur hissi ilə yad edir. Əlbəttə ki, bizim hər birimiz Ümummilli Liderin şəxsiyyəti qarşısında öz mənəvi borcumuzu yerinə yetirməyə çalışırıq. Milli Məclis ilə Yeni Azərbaycan Partiyasının bu gün birgə keçirdiyi konfrans da buna bariz nümunədir.

O qeyd edib ki, ümummilli lider Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən şəxsiyyətdir: "Ulu Öndər dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, tarixi ənənələrin bərpası, ölkədə demokratiyanın bərqərar olunması istiqamətində əhəmiyyətli və misilsiz işlər görüb. Böyük siyasətçi insan hüquqları çərçivəsində qadın hərəkatının inkişafına da güclü stimul vermişdir. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və bu sahədə qanunvericilik bazasının formalaşması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev 1969-cu ildə respublikamıza ilk dəfə rəhbər təyin edildiyi vaxtdan etibarən fəaliyyətinin hər dövründə qadın haqlarının müdafiəçisinə çevrilib. Ulu Öndər müstəqillik dövründə qadın hüquqlarının qorunması üçün bir çox hüquqi-normativ aktlar, qanunlar təsdiqləyib, mühüm sərəncam və fərmanlar imzalayıb. Azərbaycan Respublikasının ali hüquqi sənədi olan Konstitusiya heç bir ayrı-seçkiliyə yol vermədən hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Məhz Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Konstitusiyasında qadınların kişilərlə bərabərhüquqlu olması təsdiq edilib və qeyd olunub ki, ölkədə kişi ilə qadının eyni hüquq və azadlıqları vardır. Bununla da demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazası yaradılıb. Bu isə öz növbəsində ictimai-siyasi həyatımızın bütün sferalarında gender siyasətinin güclənməsinə gətirib çıxarmışdır. Hüquq bərabərliyi bir sıra məcəllələrlə, o cümlədən Ailə, Mülki, Əmək, Cinayət, İnzibati Xətalar Məcəllələrlə və digər qanunlarla təsbit olunub".

Parlamentin komitə sədri qeyd edib ki, ölkəmizdə qadın hüquqlarının qanunvericilik çərçivəsində öz həllini tapması üçün beynəlxalq qanunvericiliyin öyrənilməsi vacib məsələlərdən biri idi. Müstəqilliyimizin ən çətin dövründə belə Ulu Öndər bu sahəyə də xüsusi diqqət ayırırdı. Belə ki, Azərbaycan bir sıra beynəlxalq konvensiyaları, protokolları qəbul edərək milli qanunvericiliyimizi təkmilləşdirib. Onun sözlərinə görə, qanunvericilik aktlarında qadın hüquqlarının müdafiəsi, bərabərlik prinsipi, gender yanaşması daim gözlənilib. Yaxın tarixə nəzər salanda bir daha şahid oluruq ki, Heydər Əliyevin xalqı, vətəni yolunda etdiyi fədakarlıqlar, göstərdiyi xidmətlər, atdığı addımlar unudula bilməz. O, bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa-dayaq olub, xalqı ardınca aparıb.

Hicran Hüseynova diqqətə çatdırıb ki, Ulu Öndərin müəyyən etdiyi siyasət nəticəsində ölkəmiz inkişaf yolunda inamla irəliləyib, mühüm nailiyyətlər əldə edib: "Bunlardan ən uğurlusu isə yürütdüyü siyasi xəttin cənab Prezident İlham Əliyev tərəfindən yeni meyarlarla daha da gücləndirərək yüksək səviyyədə davam etdirilməsidir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi vaxtdan bugünədək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Onun xarici siyasəti nəticəsində Azərbaycan regionun ən güclü və suveren dövlətinə, eləcə də yüksək beynəlxalq nüfuza malik olan ölkəyə çevrilib. 30 ilə yaxın davam edən erməni işğalına son qoyulub, Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunub. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların daha da genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir. Xüsusilə hüquqi bazanın təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün "Gender bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlar qəbul olunub. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verdi, eyni zamanda, bir çox stereotiplərin qırılmasına səbəb oldu. "Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva isə öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur",- deyə Hicran Hüseynova vurğulayıb.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova "Azərbaycanda dövlət qadın siyasətinin əsasları" mövzusunda çıxış edərək bildirib ki, bu il respublikamızda və ölkəmizdən kənarda "Heydər Əliyev İli" çərçivəsində çoxsaylı tədbirlərin təşkil olunması ilə əlamətdardır: "Demək olar ki, ölkəmizlə əlaqəsi olan hər kəs bu il Heydər Əliyevin Azərbaycan dövlətçiliyi tarixində, xalqımızın həyatında oynadığı rol, Onun xidmətləri, fədakarlığı nəticəsində müasir Azərbaycan dövlətinin qurulması kimi bağlı mövzular ətrafında danışır, fikir mübadiləsi edir. Hər kəs çox böyük minnətdarlıq və ehtiram hissi ilə böyük şəxsiyyət Heydər Əliyevi yad edir, Onun xatirəsi qarşısında baş əyir və dahi Liderin xidmətlərindən doğan öhdəliklərini, məsuliyyətlərini dərk edərək sabaha böyük inamla baxır.

*Ardı Səh. 6*

# "Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində"

Əvvəli-Səh-5

Ona görə inamla baxırlar ki, Azərbaycanın müstəqilliyinin bərpası dönəmində və ona qədərki dövrdə Heydər Əliyev bir insanın, şəxsiyyətin, Liderin öz xalqı və dövləti üçün edə biləcəyi mümkün nə varsa, hamısını etməyin nümunəsini və örnəyini yaradıb. Bu baxımdan, Heydər Əliyev və Azərbaycan mövzusu hər zaman tədqiqat obyekti olacaq və bizim hər birimizin vəfa borcudur ki, bununla bağlı həm fəaliyyətimizdə, həm də onun müxtəlif aspektlərini geniş ictimaiyyətə çatdırmaq istiqamətində işimizi düzgün quraq. Hesab edirəm ki, bu konfrans məhz bu vəzifələrə cavab verən çox gözəl bir tədbirdir. Burada Heydər Əliyev və Azərbaycanda gender siyasəti, xüsusilə onun qanunvericilik kontekstində araşdırılması ilə bağlı bir sıra fikirlər səsləndirildi. Əlbəttə, əgər bunu biz konkret qanunların qəbulu və onun icrası ilə bağlı qəbul edilən fəaliyyət planları, dövlət proqramlarından kənar ümumilikdə dəyərləndirmək istəsək, onu bir neçə dövrə bölmək olar. Həmçinin tədbirdə səsləndirildiyi kimi, Azərbaycanın həyatının ən çətin məqamlarında Heydər Əliyev bütün sahələrdə olduğu kimi, bu sahədə də vacib qərarların qəbulu ilə tarixə düşüb".

Bahar Muradova qeyd edib ki, 1995-1998-ci illər Azərbaycanda qadın hüquqlarının qorunması və ümumilikdə gender siyasətinin formalaşması ilə bağlı çox vacib illər olub: "Əgər buna qədər Azərbaycanda qadın hüquqlarının təmin olunması, qorunması və inkişafı bir hərəkat, ictimai xarakter daşıyırdısa, ayrı-ayrı təşəbbüslərı, bu və ya digər problemlərin həlli kontekstində müəyyən məqamları özündə əks etdirirdisə, Heydər Əliyevin hakimiyyəti dönəmində bu məsələlər sistemli xarakter aldı. Çünki müstəqilliyini möhkəmləndirəcək bir ölkədə bərabər hüquqları bəyan etməkdən, qadın hüquqlarının vacib olduğunu vurğulamaqdan daha irəliyə getmək və onun ciddi hüquqi qanunverici əsaslarını yaratmaq, icra mexanizmlərini formalaşdırmaq lazım idi. Bu illərdə Heydər Əliyev məhz bu addımları atdı. Konstitusiyanın 25-ci maddəsində əks olunan bərabərlik hüququ özlüyündə kişi və qadınların, Azərbaycan vətəndaşlarının bir şəxsiyyət olaraq bu prosesdə iştirakına verilən önəmi və onun üçün yaradılan şəraiti özündə ehtiva edir. Odur ki, biz həmin dönəmdə qadın hüquqlarından daha çox artıq gender bərabərliyinin təmin olunmasına yönələn bir istiqaməti görməyə başladıq. Bu, eyni zamanda, beynəlxalq ictimaiyyətə də bir mesaj idi ki, biz yalnız hüquqları bəyan etmirik, onun bərabər imkanlara və bərabər nəticələrə çevrilməsi istiqamətində də addımlar atırıq. Biz əgər ulu öndər Heydər Əliyevin gender siyasətini müəyyənləşdirib bəyan edərkən istinad etdiyi məsələləri xatırlasaq, onun Azərbaycanın milli-mənəvi dəyərləri, o cümlədən ailə dəyərləri, bizim tarixi keçmişimiz, bizi biz edən dəyərlərimiz barədə nə qədər böyük qürurla, fəxarətlə, eyni zamanda, can yanğısı ilə danışdığını yada salmalıyıq. Ona görə də biz Heydər Əliyevin təkcə bu hüquqları bəyan etməsi deyil, onun reallaşması üçün vacib olan nələri qorumağı vurğulamasını xatırlamalıyıq".

Dövlət Komitəsinin sədri qeyd edib ki, gender siyasətinin reallaşdırılması ilə bağlı qadın forumlarının, qurultaylarının keçirilməsi çox ciddi bir formatdır. Əgər 1995-1998-ci illər qadın hüquqlarının qorunmasının dövlət siyasətinə çevrilməsi ilə xarakterizə olunurdusa, ondan sonrakı dövr bu prosesin qadın siyasətinə transformasiyasını və gender mədəniyyətinin təbliği məsələsini önə çıxarmışdı. Hansı ki, 2006-cı ildə qəbul olunan "Gender bərabərliyinin təminatları haqqında" Qanun bu məsələləri özündə ehtiva edirdi. Burada mexanizmlərin yaradılması, qanunun nəzərdə tutduğu müddəaların yerinə yetirilməsi, müvafiq dövlət orqanlarının gender bərabərliyinin təmin olunması ilə bağlı öhdəliklərinin yerinə yetirilməsi, əmək hüquqları, təhsil, siyasi partiyalarda, ictimai fəaliyyətlərdə, həmkarlar təşkilatlarında bərabərliyin təmin olunması və cavabdehliyin müəyyən olunması ilə bəzi mexanizmlər hələ də müəyyənləşməyib. Bununla bağlı təkliflərimiz hazırlanır. Amma özlüyündə bu qanun qısa bir müddətdə Azərbaycan cəmiyyətini gender siyasətinin ən yüksək səviyyədə təşkil olunması, həyata keçirilməsi ilə xeyli dərəcədə irəliyə apardı. 2020-ci ildən sonra isə artıq Milli Məclisdə "Gender bərabərliyinin təminatları haqqında" Qanunun yerinə yetirilməsi ilə bağlı illik məruzələrin təqdimatı ilə biz defakto gender bərabərliyinin təmin olunmasının vəziyyəti barədə monitorinq apardıq. Bu monitorinqlərin nəticələri bütün əlaqədar qurumlara bu istiqamətdə hansı addımların atılmalı olduğunun vacibliyini vurğulayır".

Siyasi partiyalarda gender bərabərliyinə toxunan Bahar Muradova deyib ki, Yeni Azərbaycan Partiyasında nümunə olaraq gender məsələləri ilə məşğul olan ayrıca bir şöbənin yaradılması önəmli məqamdır. Onun sözlərinə görə, Ulu Öndərin zamanında da yüz minlərlə qadın Yeni Azərbaycan Partiyasına üzv olurdu. Bu proses hazırda uğurla davam edir. Bu gün isə bütövlükdə Azərbaycan cəmiyyəti gender bərabərliyi məsələsinə xüsusi diqqət göstərir. Bu fakt onu göstərir ki, Azərbaycan cəmiyyəti gender bərabərliyinin təmin olunmasında nə dərəcədə maraqlıdır.

Tədbirdə "Azərbaycan qadınlarının irəli çəkilməsində Heydər Əliyev şəxsiyyətinin rolu" mövzusunda çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə bildirib ki, konfrans Heydər Əliyev kimi böyük şəxsiyyət haqqında öz düşüncələrimizi, hisslərimizi bölüşmək üçün çox yaxşı imkandır. "Biz çox xoşbəxtik. Biz fəxr etməliyik ki, belə bir dahi insanla bir dövrdə yaşamışıq. Bu böyük insan, görkəmli dövlət xadimi olan Heydər Əliyev bizim gözəl diyarımızı bütün dünya ictimaiyyətinə tanıtdı. Onun dərin bilikləri, ölkəsinə, hər bir azərbaycanlıya məhəbbəti Azərbaycan üçün çox dəyərli oldu. Müstəqillik hər bir dövlət və xalq üçün tarixi nemətdir. Lakin bu müstəqilliyi düzgün qurmaq və düzgün inkişaf etdirmək üçün çox böyük biliklər lazım idi. Bizim unudulmaz rəhbərimiz, Ulu Öndərimiz o biliklərə malik idi".

Azərbaycanda gender bərabərliyinin tarixindən danışan Dilarə Seyidzadə xatırladıb ki, Xalq Cümhuriyyətimizi yaradan insanların ilk addımı Azərbaycan qadınının cəmiyyətdə rolunu yüksəltmək idi: "Hələ 1907-ci ildə Rusiyanın parlamentində deputat olan Xəlil bəy Xasməmmədov müsəlman fraksiyasında çıxış edərək təklif etmişdi ki, qadınlara səs hüququ verilsin. Sonra belə bir qərar qəbul olundu. Ancaq kişilərlə qadınlar ayrı-ayrı səs verirdilər. Onlar Xalq Cümhuriyyətini qurandan sonra ilk addımlarından biri o oldu ki, Azərbaycan qadınına səs vermək hüququ verilsin".

YAP Veteranlar Şurasının üzvü ulu öndər Heydər Əliyevin müstəqilliyimizin ilk illərində Azərbaycanda hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən danışaraq dövlət qadın siyasətinin formalaşmasından ətraflı bəhs edib. Müstəqilliyimizin ilk illərinin çox çətin və mürəkkəb olduğunu xatırladan Dilarə Seyidzadə deyib ki, bütün çətinliklərə baxmayaraq, Ulu Öndər Azərbaycan qadınını heç vaxt unutmurdu, qadınların cəmiyyət həyatında rolunun artırılmasına xüsusi diqqət yetirirdi. Eyni zamanda, Azərbaycan qadınlarının beynəlxalq platformalarda təmsilçiliyinə də Heydər Əliyev xüsusi həssaslıqla yanaşırdı. Bunun ilk nümunəsi 1994-cü ildə Azərbaycan qadınlarının Pekində keçirilən Dünya Qadınları Konfransında iştirakı oldu. İlk dəfə idi ki, Azərbaycanın qadın nümayəndəsi beynəlxalq konfransda həmsədr seçildi. Bu uğurun əldə olunmasında ulu öndər Heydər Əliyevin nüfuzu müstəsna rol oynadı".

Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini bölüşən Dilarə Seyidzadə deyib: "Mən çox xoşbəxtəm ki, 10 il Heydər Əliyev kimi dahi insanın yanında işləmişəm. Onun qadına olan münasibəti əsl örnəkdir, nümunədir. Bu il ölkəmizdə "Heydər Əliyev İli" çərçivəsində çoxsaylı tədbirlər keçiriləcək. Biz Azərbaycanı zirvələrə yüksəldən bu böyük insanla hər zaman fəxr edirik".

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva konfransda "Qadın hüquqlarının müdafiəsi dövlətin prioritet məsələsidir" mövzusunda çıxış edib. O bildirib ki, Azərbaycan qadını tariximizin bütün dönəmlərində cəmiyyətimizin mənəvi dayağı olub, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib. Bu gün də Azərbaycan qadınları Vətənimizin inkişafına, dövlət quruculuğuna böyük töhfələr verirlər. Bu bir faktdır ki, ölkəmizdə dövlət gender siyasətinin əsasları ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Məhz Heydər Əliyev zəkasının məhsulu olan Azərbaycanın Konstitusiyası demokratik, hüquqi dövlət quruculuğunun təminatçısı olmaqla bərabər, qadınlarla kişilər arasında istənilən növ ayrı-seçkiliyin yolverilməzliyini bir daha təsdiq edərək, onların bərabər şəkildə insan hüquqları və fundamental azadlıqlardan istifadə etmələrini təmin edir.

Ombudsmanın sözlərinə görə, ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra Azərbaycanın qadın hərəkatında yeni, fəallığı və yüksəlişi ilə fərqlənən mərhələ başlanıb: "1994-cü ildə Heydər Əliyev Pekində keçiriləcək IV Dünya Qadın Konfransına hazırlıqla əlaqədar milli komitə yaradılması haqqında fərman imzaladı və Azərbaycan qadınları bu konfransda yüksək səviyyədə təmsil olundu. Bu da respublika qadın cəmiyyətinin formalaşmasına güclü təkan verdi. 1995-ci ilin iyun ayında ölkəmiz BMT-nin "Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyin ləğv edilməsi haqqında" Konvensiyasına qoşuldu və öz üzərinə müvafiq öhdəliklər götürdü. Daha sonra Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə islahatlar həyata keçirildi, qanunvericilik bazası formalaşdırıldı, səmərəli hüquq müdafiə mexanizmləri yaradıldı".

Səbinə Əliyeva qeyd edib ki, bu gün də Azərbaycanda gender bərabərliyinin təminatına dövlət qayğısı yüksək səviyyədədir. Ulu Öndərimiz tərəfindən əsası qoyulan yolun və siyasətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəticəsində Azərbaycanda qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmini ilə bağlı böyük uğurlara nail olunub. İnsan hüquqlarının tərkib hissəsi olan qadın hüquqları, gender bərabərliyi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi və yeni normativ hüquqi aktların qəbul edilməsi bu sahələrdə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Vurğulanıb ki, Azərbaycanda qadın siyasəti sahəsində strategiyaların uğurla davam etdirilməsinə, qadınların ictimai həyatda fəal iştirakına və idarəetməyə cəlb olunmasına xüsusi diqqət yetirilir. Bu xüsusda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanda dövlət qadın siyasətinin uğurlu inkişafı istiqamətində həyata keçirdiyi mühüm fəaliyyət xüsusi vurğulanmalıdır. Məhz onun rəhbərliyi altında qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmini məsələsinə xüsusi önəm verilir, gender problemlərinin, qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılması istiqamətində uğurlu layihələr həyata keçirilir.

Səbinə Əliyeva diqqətə çatdırıb ki, siyasi, iqtisadi və sosial sahələrdə gender bərabərliyi amilinə daha çox əhəmiyyət verilməsi ölkədə insan hüquqlarının qorunmasına da öz töhfəsini verir: "Qadın hüquqlarının müdafiəsi və təbliği, gender bərabərliyinin təmini, qadınların pozulmuş hüquqlarının bərpası daim Ombudsmanın da diqqətindədir. Qadın hüquqlarının müdafiəsi istiqamətində tərəfimizdən səlahiyyətlərimiz çərçivəsində fəaliyyət həyata keçirilir, gender bərabərliyinin səmərəli təmin edilməsi məqsədilə təkliflər irəli sürülür. Ombudsmanın ünvanına qadınların pozulmuş hüquqları ilə bağlı çoxsaylı müraciətlər daxil olur. Daxil olan bütün müraciətlərə çox böyük həssaslıqla yanaşılır, qaldırılan məsələlərin həlli ilə bağlı operativ olaraq addımlar atılır, bir çox hallarda zəruri tədbirlər görülərək hüquqlar təmin edilir. Müvəkkil tərəfindən qadınların müxtəlif qruplarının xüsusiyyətləri baxımından onların hüquqlarının müdafiəsinə fərqli, bəzən isə fərdi yanaşma tətbiq olunur. Qeyd edilənlərlə yanaşı, Ombudsman tərəfindən Bakı Dövlət Universitetində bir çox fakültələrində "Genderə giriş" və "İnsan hüquqları" fənnləri tədris olunur, qadın hüquqları, gender bərabərliyi, zorakılıqla mübarizə və bu kimi digər mövzularda mühazirələr aparılır. Bu da öz növbəsində gender anlayışının təbliğinə, gender nəzəriyyəsinə yeni yanaşmaların formalaşmasına, gender münasibətlərinin təkmilləşməsinə və perspektiv inkişafına xidmət edir. Müvəkkilin təşəbbüsü ilə hər il ölkədə "Sülh aylığı", "Uşaq hüquqları aylığı", "İnsan hüquqları aylığı" keçirilir. Bu aylıqlar əhalinin müxtəlif qruplarının, o cümlədən qadınların hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə işinin daha kütləvi şəkildə həyata keçirilməsinə, insanların gender düşüncəsinin və gender mədəniyyətinin inkişaf etdirilməsinə imkan yaradır".

"Müvəkkil tərəfindən qadınlara qarşı zorakılıq probleminin aradan qaldırılması, ahıl qadınların, tənha anaların da hüquqları təmin olunması, yeniyetmə qızların erkən və qeyri-rəsmi nikahlarının qarşısının alınması istiqamətində ardıcıl işlər aparılır. Azərbaycan qadını həm də şəhid anasıdır, şəhid bacısıdır, şəhid yoldaşıdır, şəhid övladıdır. Azərbaycan anasının yetişdirdiyi igid oğullar öz Vətənlərinin keşiyində ayıq-sayıq dayanırlar. Əminəm ki, Azərbaycan qadını bundan sonra da ölkəmizin ictimai, siyasi, elmi, təhsil və mədəni həyatında fəal rol oynayacaq, üzərinə düşən şərəfli analıq və vətəndaşlıq vəzifələrini uğurla yerinə yetirəcək",- deyə Ombudsman vurğulayıb.

Konfransda "Azərbaycan iqtisadiyyatında və sahibkarlığın inkişafında qadınlar" mövzusunda çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Azərbaycan qadınının cəmiyyətimizdə və dövlət siyasətində rolu həmişə yüksək olub.

Ardı Səh. 7

# “Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində”

Əvvəli-Səh-6

Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan qadınının cəmiyyət həyatında önəmli rolu dövlət siyasətində təsbit olunub. Onun sözlərinə görə, bütün dünyada qadınların rolu və imkanları ilə iqtisadi inkişaf arasında əlaqə daim araşdırma mövzularından biri olub. Dünya əhalisinin 49,6 faizi qadın olsa da, onların dünya iqtisadiyyatında payı cəmi 37 faizdir. Bu göstərici təxminən 40 trilyon dollar civarındadır.

"Bu gün dünyanın iqtisadi siyasətini müəyyən edən dörd mühüm təşkilatın- Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Ticarət Təşkilatının, Avropa Mərkəzi Bankının və ABŞ-ın Maliyyə Nazirliyinin rəhbərləri qadındır. Bu fakt deməyə əsas verir ki, dünya iqtisadiyyatının yönümünü müəyyən edən məhz qadınlardır",- deyən Tahir Mirkişili qeyd edib ki, Azərbaycanda sahibkarlıq subyektlərinin 21 faizi qadınlardır. 1 milyon 300 min sahibkarımızın 230 min nəfəri qadınlardan ibarətdir. İnkişaf etmiş ölkələrlə müqayisə etdikdə, Azərbaycan sahibkarlarının iqtisadiyyatda rolu daha yüksəkdir. Bu gün dünyanın inkişaf etmiş ölkələrində qadın sahibkarlarının iqtisadiyyatda rolu təxminən 17-18 faizə yaxındır. Ümumiyyətlə, qadınların imkanları ilə iqtisadi artım arasında əlaqənin iki tərəfi var. Birincisi, qadınlar daha çox hüquqi və fiziki imkanlara sahib olduqca iqtisadi artım daha yüksək olur. İkincisi yanaşma isə ondan ibarətdir ki, iqtisadi inkişaf daha çox artdıqca qadınların imkan və hüquqları daha da artır.

Parlamentin komitə sədri deyib ki, ölkə əhalisinin yarısını təşkil edən qadınların iqtisadi fəallığının artırılması, idarəetmə və qərarların qəbulu prosesinə cəlb olunması mühüm məsələdir. Qadınların özünü realizə etməsi üçün şəraitin yaradılması, iş və ailə həyatı arasında balansın qorunması həm də davamlı iqtisadi artımı təmin edir. Bu, həm də dövlətimizin iqtisadi cəhətdən güclənməsi deməkdir. Bunun üçün dövlət qurumları ilə yanaşı, müxtəlif qadın təşkilatları, özəl strukturlar, qeyri-hökumət təşkilatları tərəfindən davamlı işlər görülür. Hazırda qadınlarımızın cəmiyyətin bütün sahələrinə daha fəal cəlb edilməsi üçün yeni perspektivlər, reallıqlar yaranıb.

Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən imzalanmış sənədlər, qəbul edilmiş qərarlar sahibkarlığın inkişafına çox böyük dəstəkdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü ilə həyata keçirilən sosial layihələr də qadın sahibkarlığının, xüsusilə həssas qrupdan olan qadınlar arasında sahibkarlığın inkişafına müsbət təsir göstərir. Bu isə sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə qadınların əmək hüquqları və sahibkarlıq fəaliyyəti ilə bağlı lazımi qanunvericilik bazası mövcuddur. "Bu gün iqtisadi və sosial inkişafın səmərəliliyinə nail olmaq, iqtisadi inkişaf və yüksəlişdən bəhrələnmək üçün cəmiyyətdə olan qadınların mövcud potensial imkanlarından istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının inkişaf prioritetləri və milli xüsusiyyətləri nəzərə alınmaqla, qadın sahibkarlığının inkişafını təşviq etmək üçün müvafiq tədbirlər həyata keçirilir",-deyə Tahir Mirkişili söyləyib.

"Gender bərabərliyi: gələcək hədəflər" mövzusunda çıxış edən YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib ki, tarixin bütün mərhələlərində, ən çətin məqamlarda Azərbaycan qadını cəmiyyət naminə, milli mentalitetin mühafizəsi naminə məsuliyyəti bölüşüb, cəmiyyətin sabahlarına qayğı göstərməyi bacarıb. Azərbaycan qadının bu cəsarətinə, Vətən sevgisinə ən böyük və sistemli dəstəyi isə, əlbəttə ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev verib. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ulu öndər Heydər Əliyev millətin taleyi üçün mühüm əhəmiyyət kəsb edən bütün vacib sferaları hər zaman diqqət mərkəzində saxladığı kimi, qadınların ölkəmizin həyatında fəal iştirakını dəstəkləmək məqsədilə ölkəmizdə qadın siyasətinin təməl prinsiplərini müəyyən etmişdi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan qadınının bacarığına, qabiliyyətinə, vətənsevərliyinə verdiyi yüksək dəyər, onlara sonsuz inam qadınların bütün sahələrdə fəaliyyət potensialının üzə çıxarılmasında da həlledici amillərdən olmuşdu.

Onun sözlərinə görə, cəmiyyətimizdə qadınların təsirli rolunun təmin edilməsi istiqamətində də Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin baxışlarını yaşatmaqdadır: "Belə ki, Azərbaycan qadını günümüzdə ən müxtəlif sahələrdə kifayət qədər uğurla fəaliyyət göstərməkdədir. Sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycanın uğurlarının da inkişafının davamlı olmasını təmin etmək məqsədilə cəmiyyətin dinamik qüvvələrinin potensialı ümummilli məqsədlər üçün cəmləşdirilir. Bu, həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biridir. Bu istiqamətdə cəmiyyətin taleyüklü məsələlərində qadınların da rolunu artırmaq, bütün peşə və sahələrdə iştirakını təmin etmək məqsədilə ölkəmizdə əlverişli mühit yaradılıb. Ölkəmizdə çoxşaxəli və davamlı islahatların aparılması dövrümüzdə demokratik cəmiyyətin göstəricilərindən biri olan gender bərabərliyinin və qadın hüquqlarının yüksək səviyyədə təminatına əsas verir. Mühüm bir hissəsini gənc qızların təşkil etdiyi gənclər ordusunun təhsil imkanlarının genişləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Dövlətimiz potensiallı gənclərimizi beynəlxalq təcrübəni öyrənmək məqsədilə ölkə xaricində nüfuzlu universitetlərdə təhsillərini davam etdirmək üçün hər cür qayğı ilə əhatə edir. Cənab Prezidentimizin bu istiqamətdəki siyasəti ölkəmizin kadr potensialının güclənməsinə xidmət edir".

Səbinə Xasayeva qeyd edib ki, bu gün ölkəmizdə gender bərabərliyinin təmin edilməsi istiqamətində atılan addımlar öz bəhrəsini verməkdədir: "Yüksək yaradıcılıq potensialına malik Azərbaycan qadını, xüsusən gənc qızlar göstərilən inam və etimad müqabilində fəallıq nümayiş etdirirlər. Sevindirici hal ondan ibarətdir ki, Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bütün qüvvələrini səfərbər edir, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Qarşıda duran vəzifələr isə aydın və dəqiqdir. Cəmiyyət həyatının bütün istiqamətlərində dayanıqlı inkişafa nail olmaq məqsədilə elm və texnikada, süni intellekt və bu kimi digər sahələrdə, həm də qeyri-ənənəvi sayılan istiqamətlərdə qadınların və qızların rolunu, iştirak miqyasını genişləndirmək mütləqdir. Gələcəyimizə isə daha optimist, daha böyük ümidlərlə baxırıq. Çünki Azərbaycan qadınının gələcəkdəki möhtəşəm uğurları indidən hər birimizi fərəhləndirir. Bu inamın əsasında isə milli-mənəvi dəyərlərə bağlılıqla müasirliyin ahəngində uğurlar qazanan Mehriban xanım Əliyevanın timsalında gənc qızlarımıza örnək olan Azərbaycan qadınları dayanır".



# Lənkəranda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan edilib. “Heydər Əliyev İli” çərçivəsində Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin, əbədiyaşar ideyalarının geniş ictimaiyyətə çatdırılması məqsədilə ölkə daxilində və Azərbaycanın hüdudlarından kənarda zəngin və çoxşaxəli tədbirlər keçiriləcək. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən “Heydər Əliyev İli” ilə əlaqədar Tədbirlər Planı hazırlanıb və İdarə Heyətinin qərarı ilə təsdiq edilib.**

Tədbirlər Planı çərçivəsində fevralın 8-də Lənkəranda Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə tədbir keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.

Lənkəran rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdən öncə Heydər Əliyev muzeyi ilə tanışlıq olub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Daha sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev ümummilli lider Heydər Əliyevin həyatı, zəngin və çoxşaxəli fəaliyyəti haqqında ətraflı danışıb. O, Ulu Öndərin müstəqil Azərbaycan dövlətinin inkişafı naminə həyata keçirdiyi müstəsna işlərdən söhbət açıb.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Milli Məclisin deputatları Cavanşir Paşazadə, Rüfət Quliyev, YAP Lənkəran rayon təşkilatı 5 saylı ərazi partiya təşkilatının sədri Elman Rzayev, partiya veteranı İbrahim Quliyev, YAP Lənkəran rayon təşkilatının fəal üzvü Nərgiz Həsənzadə çıxışlarında vurğulayıblar ki, bu gün Heydər Əliyev ideyaları əsasında dinamik inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Qeyd edilib ki, qazanılan bütün nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirməsi dayanır.





Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərmanla təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.




# Qoşulmama Hərəkatı - Ədalətli dünya uğrunda

***Məlum olduğu kimi, fevralın 7-də Prezident İlham Əliyev Namibiya Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Klemens Xanduukeme Kaşuupulvanın etimadnaməsini qəbulu zamanı bildirib ki, gələn ay Azərbaycanda Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində Zirvə Görüşü keçiriləcək: "Gələn ay Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində Zirvə Görüşünə ev sahibliyi edəcək".Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının üzvü olaraq bu təşkilatın təsisatlanması istiqamətində işlər apardığını vurğulayıb. Dövlət başçısı deyib ki, BMT Təhlükəsizlik Şurasında islahatlar prosesi çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin Təhlükəsizlik Şurasında daimi üzv kimi rotasiya qaydasında təmsil olunması mexanizminin nəzərdən keçirilməsi Azərbaycanın təşəbbüsüdür.***

## Prezident İlham Əliyev: "Qoşulmama Hərəkatı sədrinin BMT TŞ-də daimi üzvü olması ədalətli yanaşma olacaq"

Bu xüsusda Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılması vacibdir, bu cür yanaşmanın daha ədalətli olacaq: "Qoşulmama Hərəkatı çərçivəsində BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı müzakirələrin aparılması vacibdir. Azərbaycan Hərəkatın sədri olan dövlətin BMT Təhlükəsizlik Şurasında rotasiya qaydasında daimi üzvü olması barədə təşəbbüslə çıxış edib".Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin bu il başa çatdığını xatırladaraq, ölkəmizin bu məsələni institusional mexanizm kimi formalaşdırmaq niyyətində olduğunu, Hərəkata sədrlik edəcək dövlətlərin BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasının daha ədalətli yanaşma olacağını qeyd edib.Azərbaycan Prezidenti, həmçinin Vyetnam şirkətlərini azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərində iştiraka dəvət edib.Vyetnamın ölkəmizdə yeni təyin olunan səfiri Danq Min Xoy bildirib ki, Vyetnam Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətini dəstəkləyir və Vyetnam xalqının Azərbaycan tərəfindən çoxlu sayda vyetnamlı tələbənin ölkəmizdə təhsil alması üçün şəraitin yaradılmasını yüksək qiymətləndirir. Həmçinin, Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində ayırdığı təhsil təqaüdü proqramları üzrə vyetnamlı tələbələrin Azərbaycanda təhsil aldıqlarını diqqətə çatdırıb.

### PREZİDENT İLHAM ƏLİYEVİN HƏYATA KEÇİRDİYİ UĞURLU XARİCİ SİYASƏTİN NÖVBƏTİ TƏZAHÜRÜ - DAHA BİR İL

Azərbaycanın BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilatına - Qoşulmama sədrlik etməsi ölkəmizin dünya birliyində qazandığı böyük nüfuzundan xəbər verir. Qeyd edək ki, Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycan, Hərəkatın növbəti sədri olacaq Uqandanın sədrliyi 1 il gec təhvil ala biləcəyini ifadə etməsindən sonra Qoşulmama Hərəkatına üzv dövlətlərinin Hərəkata əlavə 1 il sədrlik etmək müraciətini müsbət cavablandırıb. "Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycan, Hərəkatın növbəti sədri olacaq. Qısa müddət ərzində Azərbaycan Qoşulmama Hərəkatında olduqca böyük nüfuz və etimad qazandı". Bunu Prezident İlham Əliyev ötən il iyulun 13-də Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransında çıxışı zamanı deyib. Bu, Prezident İlham Əliyevin beynəlxalq miqyasda yüksək nüfuzunun göstəricisidir. Dövlət başçısı bildirib ki, qısa müddət ərzində Azərbaycan Qoşulmama Hərəkatında olduqca böyük nüfuz və etimad qazandı: "Məmnunluqla qeyd edirəm ki, Azərbaycan sədrliyi dövründə digər beynəlxalq təsisatlarla körpülərin yaradılmasına müvəffəq olub. Tarixdə ilk dəfə Avropa İttifaqının rəhbərləri Qoşulmama Hərəkatının yuxarıda qeyd olunan onlayn Zirvə görüşündə iştirak ediblər. Daha sonra Avropa İttifaqına üzv dövlətlər Qoşulmama Hərəkatının BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünü dəstəkləyib. Qoşulmama Hərəkatı və Avropa İttifaqı BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində bir sıra məsələlərlə bağlı əməkdaşlıq edir".

### PREZİDENT İLHAM ƏLİYEVİN QLOBAL LİDERLİYİNİN BARİZ NÜMUNƏSİ

Dünyanın ikinci ən böyük təsisatına - Qoşulmama Hərəkatına üzv olan Azərbaycan çox qısa müddətdə böyük etimad qazandı. 2016-cı ildə bütün üzv dövlətlərin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədr olması isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin növbəti təzahürü idi. Bu nüfuzlu təsisata sədrliyi dövrü üçün Azərbaycan hərtərəfli qlobal fəaliyyət planı hazırladı. Lakin COVID-19 pandemiyasının dünyanı bürüməsi beynəlxalq platformaların da gündəmini dəyişdi. Azərbaycan yeni yaranmış vəziyyətə çevik reaksiya verməklə yanaşı, pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində də beynəlxalq miqyasda səmərəli təşəbbüslər irəli sürdü. Təsadüfi deyil ki, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına könüllü şəkildə ayırdığı 10 milyon ABŞ dollarının yarısı məhz Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulurdu.Eyni zamanda, bu gün Azərbaycan qlobal liderlik rolunu üzərinə götürərək pandemiyaya qarşı mübarizədə beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkə oldu. 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşündə Prezident İlham Əliyevin BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının çağırılması təşəbbüsü 150-dən artıq ölkə tərəfindən dəstəkləndi. Bu təşəbbüsə qarşı çıxan yeganə ölkə Ermənistan isə bu yanaşmasına görə rəsmən rüsvay oldu.2020-ci il dekabrın 3-4-də BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyasının keçirilməsi isə Azərbaycanın pandemiyaya qarşı mübarizədə oynadığı aparıcı rolun və Prezident İlham Əliyevin qlobal liderliyinin bariz nümunəsi kimi dəyərləndirilməlidir. Bütün təşəbbüslər kimi, Azərbaycanın Qoşulmama Hərəkatı tərəfindən COVID-19-dan sonra qlobal bərpaya dair BMT-nin Yüksək Səviyyəli Panelinin yaradılmasına dair təşəbbüsü də müsbət qarşılandı.Bütün bu sadalanan amilləri nəzərə alaraq əminliklə deyə bilərik ki, 2019-2022-ci illər ərzində Azərbaycanın Qoşulmama Hərəkatına sədr olması, keçmişdə qalan münaqişə ilə bağlı cənab Prezident İlham Əliyevin yürütdüyü düzgün müəyyən olunmuş, aktiv diplomatiya ilə haqlı olaraq bu böyük təsisatdan dəstək almağımız ölkə başçımızın həyata keçirdiyi siyasətin növbəti şanlı təntənəsidir.




Bir sözlə, istər pandemiya dövründə birgə fəaliyyətin həyata keçirilməsi, istər dünyaya yeni çağırışların həyata keçirilməsi baxımından təşkilatın və ona rəhbərlik edən Azərbaycanın böyük rolu oldu. Həmçinin Vətən müharibəsi dövründə təşkilatın mövqeyi və yanaşması beynəlxalq hüququn təzahürü, Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının göstəricisidir.

## BU, SÖZÜ İMZASI QƏDƏR DƏYƏRLİ VƏ QÜVVƏTLİ OLAN PREZİDENT İLHAM ƏLİYEVİN BEYNƏLXALQ MİQYASDA YÜKSƏK NÜFUZUNUN GÖSTƏRİCİSİDİR

Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Təsadüfi deyil ki, BMT, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Belə ki, dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı, məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin quruma sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Eyni zamanda, Qoşulmama Hərəkatına sədrlik Azərbaycana xüsusilə COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal rol oynamağa imkan yaradıb. Əlbəttə ki, bu prosesdə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynayıb. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.

Hərəkatın 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və həmin ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası xüsusi qeyd olunmalıdır. Çünki Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizə aparıb. Azərbaycan Qoşulmama Hərəkatının adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin olunması ilə bağlı qətnamə irəli sürüb və həmin qətnamə 2021-ci ilin mart ayında yekdilliklə qəbul edilib. Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişə ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmasını göstərmək olar". Qoşulmama Hərəkatı ölkələrinin ölkəmizə tam etimadının nəticəsidir ki, üzv dövlətlərin yekdil rəyinə əsasən, Azərbaycanın təşkilata sədrliyi daha bir il uzadıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan təşkilatın fəaliyyətini mühüm töhfələr verir. Qoşulmama Hərəkatından əlavə, Azərbaycan 2019-2021-ci illərdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da uğurla sədrlik etdi. Ölkəmiz sədrliyi dövründə türkdilli ölkələr arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərdi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Türk Dövlətləri Təşkilatına (TDT) çevrilərək beynəlxalq təşkilat statusunu qazanması, Türk dünyasının iki mühüm ideya və hərəkətverici gücünün - Azərbaycanın və Türkiyənin uzun illərdən bəri həyata keçirdikləri siyasətin, gərgin əməyin bariz nümunəsidir. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrində dinamizm müşahidə olunur. Xüsusilə də, Mərkəzi Asiya ölkələri arasında Qırğızıstan və Qazaxıstan prezidentlərinin Azərbaycana, Azərbaycan Prezidentinin Özbəkistana, Türkmənistana və Qırğızıstana səfərləri və əldə edilmiş razılaşmalar əlaqələrimizin gələcək konturlarını müəyyən edir.




## PREZİDENT İLHAM ƏLİYEVİ QƏRB DÜNYASINDA - AVROPADA SON DƏRƏCƏ PRAQMATİK LİDER KİMİ QƏBUL EDİRLƏR

Eyni zamanda, son illərdə türkdilli ölkələrin arasındakı əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatması Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın türk dünyası qarşısında tarixi xidmətləridir. Eyni zamanda, Azərbaycan Prezidentinin fəal xarici siyasət kursu ölkəmizin beynəlxalq aləmdə milli mənafeyinin müdafiəsinə yönəlib və konkret nəticələr əldə edib. Bu siyasət müstəqildir və milli maraqların müdafiəsinə söykənir. Məsələyə bu kontekstdə yanaşdıqda Prezident İlham Əliyevin həm Qərb, həm də Şərqi Asiya istiqamətində xarici siyasət vektorlarının ölkəmiz üçün çox böyük siyasi dividendlər gətirdiyi göz qabağındadır. Prezident İlham Əliyevi Qərb dünyasında - Avropada son dərəcə praqmatik Lider kimi qəbul edirlər. Xüsusilə də, Prezident İlham Əliyevin son Praqa danışıqlarındakı diplomatik uğurları heç şübhəsiz ki, Qərbin aparıcı beyin mərkəzlərinin, siyasi liderlərinin, KİV-lərin diqqətindən yayınmır. Təkcə bu istiqamətdə deyil, həm də Asiya istiqamətində Azərbaycan Prezidentinin olduqca çevik xarici siyasət kursu diqqəti cəlb edir. Bir sözlə, bütün bu səfərlər bir daha onu göstərir ki, Qərb dünyasında olduğu kimi, Şərq dünyasında - Asiyada da Azərbaycan Prezidentinin şəxsiyyətinə çox böyük inam, ehtiram, etibar var. Qürurverici haldır ki, Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə dəvət alması, həmin tədbirlərdə fəal iştirakı ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir. Dünya xəritəsində indi Azərbaycan kimi dövlətlər azdır. Azərbaycanda həyata keçirilən inkişafa yönəlik siyasət nəticəsində ölkəmizin əlverişli geostrateji mövqeyini diplomatik qüdrətimizlə bütün dünyaya qəbul etdirmişik. Azərbaycan şanslıdır ki, onun həm Avropa, həm də Asiyada örnək götürülən dövlət başçısı var.

## QOŞULMAMA HƏRƏKATINA DAHA BİR İLİN ARTIRILMASI AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DİPLOMATİYASININ NÖVBƏTİ TƏNTƏNƏSİDİR

Bəli, prosedura görə, Azərbaycanın sədrlik müddəti 2022-ci ildə bitməlidir, lakin hərəkata üzv dövlətlərin yekdil istəyi ilə bu müddət 2023-cü ilə qədər uzadıldı. Bu, Azərbaycan Prezidentinin qlobal liderlik fəaliyyətinə verilən yüksək qiymət və Azərbaycana olan etimadın, inamın növbəti təzahürüdür. Göründüyü kimi, hər zaman qlobal təşəbbüslər müəllifi Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq birlik tərəfindən birmənalı olaraq təqdir edilib. Bu, bir daha təsdiq edir ki, Azərbaycan 120 əsas üzvü, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm töhfələr verir, hətta onun artıq təşkilata çevrilməsi istiqamətində vacib addımlar atır. Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olan Azərbaycan təşkilatın ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha dünyaya nümayiş etdirir. Eyni zamanda, Qoşulmama Hərəkatına üzv dövlətlər quruma 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanlamaları və bu müraciət respublikamız tərəfindən müsbət dəyərləndirilməsi, qısa müddət ərzində ölkəmiz Hərəkatda olduqca böyük nüfuz və etimad qazanması reallığını təsdiqidir. Bir sözlə, bütün bu faktlar bir daha onu göstərir ki, Azərbaycan pandemiya şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, Qoşulmama Hərəkatına sədrlik fəaliyyətini uğurla həyata keçirir. Məhz Qoşulmama Hərəkatına üzv dövlətlərin 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciətləri isə dünyada ölkəmizə, onun Liderinə olan böyük inamın və etimadın ifadəsidir. Bundan başqa, pandemiyaya qarşı milli səviyyədə nümunəvi şəkildə mübarizə aparan respublikamız 30-dan çox dövlətə də dəstək verib. Respublikamızın "peyvənd millətçiliyi"nə qarşı qətiyyətlə mübarizə aparması da Qoşulmama Hərəkatına üzv dövlətlərin mənafelərinə tam uyğundur. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatı adından irəli sürdüyü təşəbbüs BMT-nin İnsan Hüquqları Şurasında dəstəklənib. Və bu gün Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə edərək böyük etimad qazanması Azərbaycanın dünyada qəbul olunan norma və prinsiplərə necə hörmətlə yanaşdığının göstəricisidir. Göründüyü kimi, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərarı həm də Prezident İlham Əliyevin dünyadakı nüfuzunun daha bir göstəricisi və onun şəxsiyyətinə verilən yüksək dəyərin ifadəsidir. Bəli, bu gün Ona inanırlar və irəli sürdüyü hər bir təklifləri bilavasitə dəstəklənir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin daha bir il uzadılması təşəbbüsünün irəli sürülməsi amili də bu kimi mühüm, prinsipial gerçəklikləri növbəti dəfə təsdiqləmiş olur.

Bir sözlə, bütün göstərilənlər onu deməyə əsas verir ki, dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 19 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir. Nəticədə isə, dövlət başçımızın dediyi kimi: "Biz həmrəylik, qarşılıqlı dəstək və təsisatlarımızın gücləndirilməsində tərəqqinin şahidi olacağıq".

**RƏFİQƏ KAMALQIZI**

# Heydər Əliyev-100



## Ulu öndərin siyasi kursu Böyük Qayıdışın təməl prinsiplərini təşkil edir

***Hər bir Azərbaycan vətəndaşına yaxşı məlumdur ki, 1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, bir dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Belə bir çətin məqamda xalqın təkidli tələbini və istəyini qəbul edən Ümummilli Lider Heydər Əliyev 9 iyun 1993-cü ildə Naxçıvandan Bakıya gəldi, beləliklə, Azərbaycanın müasir dövlətçilik tarixində yeni səhifə açıldı. Ulu öndər Heydər Əliyev Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi və inkişaf etdirməyi özünün əsas vəzifələrdən biri hesab edirdi.***

Bu, bir həqiqətdir ki, 15 iyun Azərbaycanın müstəqillik tarixində yeni siyasi eranın başlanğıcı oldu. "Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək" fikrini söyləyən Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və gələcək inkişafı istiqamətində mühüm addımlar atırdı. Xüsusilə qeyd etmək istərdim ki, o dövrdə, Azərbaycanın çətin günlərində bütün xalqımız kimi ağdamlıların da gözü Naxçıvana tikilmişdi. Çünki yeganə ümid yeri Naxçıvan Ali Məclisinin sədri, qəlbi daima xalqının qəlbi ilə döyünən Heydər Əliyev idi. Hər bir Azəbaycan ziyalısı kimi ağdamlılara da çox yaxşı bilirdilər ki, Heydər Əliyev kimi güclü və dəmir iradəli şəxsiyyət ölkənin bu çətin günlərində öz çiynini belə ağır, son dərəcə məsuliyyətli yükün altına verə bilər. Bu addımı yalnız Vətəni və xalqı naminə hər cür fədakarlığa hazır olan adam ata bilər. Odur ki, xalqın günü-gündən Heydər Əliyev şəxsiyyətinə olan inamı daha da artaraq ümumxalq məhəbbətinə çevrilmişdi.

Qısa müddətdə Ulu Öndərin siyasi idarəetmə qabiliyyəti və uzaqgörənliyi ilə ölkədəki böhrana son qoyuldu. Dövlətçilik tariximizin ən şanlı qürur səhifəsi, məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ömrünün böyük hissəsini xalqa, vətənə həsr edən bu Dahi Şəxsiyyət bu gün ki, müstəqil, demokratik və suveren Azərbaycan dövlətinin şanlı tarix səhifəsini yazdı. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən böyük arzusu Qarabağın işğaldan azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması idi. Ulu Öndər Heydər Əliyev dəfələrlə çadır şəhərciklərinə səfərləri zamanı məcburi köçkünlərlə görüşlərində deyirdi ki, "torpaqlarımızın 20 faizi işğal olunub, bir milyondan artıq vətəndaşımız yerindən, yurdundan didərgin düşübdür. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik və əgər işğal olunmuş torpaqlarımız sülh yolu ilə azad edilməsə biz bunu hərb yolu ilə həll edəcəyik".

Ata vəsiyyətini layiqincə yerinə yetirən Müzəffər Ali Baş Komandan, Prezident Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin bu fikrini 44 günlük şanlı Vətən müharibəsi zamanı döyüş meydanında tamamladı və tarixi ədaləti bərpa etdi. Qeyd edək ki, Ümummilli Liderin hərtərəfli uzaqgörən siyasətini bu gün Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Məhz bu uğurlu siyasi kursun məntiqi nəticəsidir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dövlətimiz 44 günlük Vətən Müharibəsində mütləq Qələbə qazandı və torpaqlarımızın ərazi bütövlüyü təmin edildi.

Bu gün hər bir Azərbaycan vətəndaşı, hər bir insan yaxşı bilir ki, 20 illik rəhbərliyi dövründə hörmətli Prezidentimiz Cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olduğunu, Azərbaycan tarixinə qurucu dövlət başçısı kimi daxil olduğunu, Azərbaycanın Cənubi Qafqazın ən güclü müasir və moderin dövlətinə çevirməyi bacaran dövlət başçısı olduğunu və hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu sübuta yetirdi.Bəli, 44 günlük Vətən müharibəsi xalqımızın birliyini, ordumuzun qüdrətini və ən əsası Müzəffər Ali Baş Komandanımız Cənab İlham Əliyevin qətiyyətini, əsl liderlik bacarığını bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra regionda və bölgədə yeni reallıqlar yaratdı. İndi ölkəmiz Postmünaqişə dövründə diktə edən dövlət kimi böyük nüfuz və güc sahibidir. Eyni zamanda, Azərbaycan regionda, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin əsas təminatçısıdır. Bu gün dövlətimizin əsas prioritet məsələlərindən biri Vətən müharibəsi zamanı işğaldan azad olunmuş ərazilərimizdə infrastruktur layihələrinin icrası, kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsidir. Ölkə Prezidenti Cənab İlham Əliyevin müvafiq Sərəncam və tapşırıqlarına əsasən, bu gün işğaldan azad olunmuş ərazilərimizdə quruculuq-bərpa işləri uğurla davam etdirilir. Düşmən tapdağından azad olunmuş Ağdam rayonunda infrastruktur layihələrinin uğurla icra olunması söylənilənlərə bariz nümunədir. Artıq təsdiq edilmiş Baş Plana əsasən, Ağdamda quruculuq-bərpa işləri sürətlə davam etdirilir. Baş plana əsasən, Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada ağıllı və dayanıqlı sosial infrastruktur yaradılacaq. Ağdam şəhərində həm fərdi evlər, həm də yüksəkmərtəbəli yaşayış binaları inşa olunacaq.

Bu gün qürur hissi ilə deyə bilərik ki, indi Böyük Qayıdışın nəticəsi olaraq işğaldan azad olunmuş digər rayonlarımız kimi Ağdam rayonu da dirçəlməkdədir. Artıq ölkə Prezidenti Cənab İlham Əliyevin müvafiq tapşırıqları əsasında Ağdamda nəqliyyat yolları, sənaye parkı, digər infrastrukturlar inşa edilib və bu proses bu gün də uğurla davam etməkdədir. Artıq ağdamlı məcburi köçkünlər səbirsizliklə işğaldan azad edilmiş ərazilərə qayıdacaqları günü gözləyirlər və bu gün çox da uzaqda deyil. İşğaldan azad edilmiş ərazilər bu gün geniş tikinti meydançasını xatırladır, tarixi Zəfərdən sonra bərpa işləri dayanmadan və sürətlə davam etdirilir. Ölkə Prezidenti Cənab İlham Əliyevin Ağdama növbəti səfəri bu bölgədə tikinti-quruculuq işlərinin ahəngdarlığının daha da artdığını və Ağdamın nəzərdə tutulduğundan da sürətlə "Böyük Qayıdış"a hazırlaşdığını göstərir. Artıq çox qısa müddət ərzində burada ən zəruri kommunikasiya və sosial infrastrukturların inşası başa çatdırılıb.

Buna misal olaraq qeyd etmək olar ki, Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi, məhz Ağdamda yaradılıb. Eyni zamanda, genişzolaqlı fiberoptik kabelin çəkilişi Ağdamda ən yüksək ötürmə qabiliyyətli sürətli internet xəttinin istifadəyə verildiyini göstərir. Beləliklə, artıq bu ərazidə həm öz doğma evlərinə dönəcək insanların, həm də biznes layihələri həyata keçirmək niyyətində olan sahibkarların elektrik və internet xidmətləri ilə təminatı tam başa çatdırıldı. Qeyd etmək istərdim ki, ölkə Prezidenti Cənab İlham Əliyev 2022-ci ilin 4 oktyabr tarixdə Ağdam rayonuna səfəri zamanı yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda aparılan işlərlə tanış olmuşdu və eyni zamanda, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, "City Hotel Agdam" mehmanxanasının təməlqoyma mərasimlərində iştirak etmişdilər. Həmçinin, dövlət başçısı Cənab İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış oldu, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak etdilər.

Bu gün Azərbaycan yalnız öz iqtisadi resursları hesabına, heç bir beynəlxalq təşkilatdan kömək almadan Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların doğma torpaqlarına geri qayıtması və respublikamızın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması dövrünü yaşayır. Dövlətimiz regionlarda olduğu kimi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə də yeni şəhərsalma təcrübəsini nümayiş etdirir. Ağdam şəhərinin timsalında bunu aydın şəkildə görürük və bu diqqətə, qayğıya görə biz ağdamlılar ölkə Prezidenti Cənab İlham Əliyevə öz dərin minnətdarlığımızı bildiririk. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimiz müasir çağırışlara uyğun olaraq "ağıllı şəhər" və "ağıllı kənd" layihəsi əsasında bərpa edilir.Qazanılan bütün bu son uğurlar bir daha onu təsdiqləyir ki, Azərbaycan Heydər Əliyevin qoyduğu yolla gedərək, inkişaf etmiş ölkələr sırasında nüfuzunu qoruyacaq.

***Mansur Quliyev***
***Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının sədri***

# Türkiyə ayaqda, Azərbaycan isə yanındadır!

Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ fəlakəti ölkədəki həyatı və gündəmi dəyişdi. Onlarla şəhərlər, kəndlər, qəsəbələr sanki yer altına gömüldü, milyonlarla insanlar evsiz-eşiksiz qaldı, minlərlə insan isə hələ də dağıntılar altında qalmaqda davam edir. Hər bir xilas edilən insan isə bu dəhşətli fəlakətə qarşı göstərilən mübarizə əzminin göstəricisidir. Uca Rəbbimiz həyatlarını itirənlərə rəhmət eləsin! Sağ qalanlara, xəsarət alanlara isə şəfa versin!

Yaşanan faciə eyni zamanda, türk xalqını və Türkiyənin sadiq dostlarını özündə daha çox və daha sıx birləşdirdi. Bu sırada isə qardaş və müttəfiq Azərbaycan hər zamankı kimi birinci yerdə dayanır. Sözügedən fakt həm də onu göstərir ki, hətta zəlzələ fəlakətindən sonra yaranmış məhdud resurslara rəğmən,




*Hətta dağıdıcı zəlzələ fəlakətindən sonra yaranmış məhdud resurslara rəğmən, Türkiyə bir çox regionlarda mühüm rolunu oynamaqda davam edir*



Türkiyə bir çox regionlarda mühüm rolunu oynamaqda davam edir. Və Türkiyə bu gün ciddi imtahan qarşısında əyilmədiyini, qəddini şax saxladığını tərənnüm edir.

### Zəlzələ fəlakəti bəzi maraqlı dairələrdə hansısa "ümid qığılcımı" yaratsa da...

Türkiyə hazırda siyasi çağırışlar astanasında da dayanıb. Təbii fəlakətin isə seçkilərə cəmi bir neçə ay qalmış baş verməsi, əslində, ölkənin daxilində və xaricində olan bəzi maraqlı dairələrdə hansısa "ümid qığılcımı" yaratdı. İndi bəzi bədməramlı dairələr əllərini bir-birinə sürtməklə özlərindən nağıllar, fantaziyalar uydurur, elə xəyal olaraq da qalacaq xəyallara dalırlar. Onların bir hissəsi hakimiyyətə yiylənərək bu günə qədər ölkənin qazandığı kifayət qədər yüksək regional və dünyəvi nüfuzunu aşağı salacaqlarını düşünür, bir hissəsi isə artıq Türkiyəni siyasi hesablarından silməyə tələsirlər. Amma nahaq yerə - çünki hazırkı dövrə qədər bir çox təlatümlərdən başıuca çıxan Türkiyənin mövcud hakimiyyəti bu ağır imtahandan da qalibiyyətlə çıxacağına inanır. Belə ki, qardaş ölkədəki xalq-iqtidar vəhdəti də bunu isbatlamaqdadır.

### Rəcəb Tayyib Ərdoğan: "Belə bir tarixi fəlakət üzərində işlərin aparıldığı bir vaxtda biz xalqımızı qarşı-qarşıya qoymağa cəhd edənləri də diqqətlə izləyirik"

Yeri gəlmişkən, Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan zəlzələ ilə bağlı verdiyi mətbuat konfransında bir çox məsələlərə toxunmaqla yanaşı, ölkənin ağır zamanında daxili və xarici dairələrin fürsətcil davranışlarına qarşı yönəlmiş daha bir əhəmiyyətli fikrini ifadə etmiş oldu. SİTAT: "Belə bir tarixi fəlakət üzərində işlərin aparıldığı bir vaxtda biz xalqımızı qarşı-qarşıya qoymağa cəhd edənləri də diqqətlə izləyirik. İndi onlarla mübahisə aparmaq günü deyil. Vaxtı çatanda biz hazırda da bizdə olan o kitabı açacağıq".

Təkcə bu ifadə artıq özü-özlüyündə Türkiyə dövlətinin ayaqda olduğunu və əksinə, daha da gücləndiyini göstərən reallıqdır. Bu gücü, bu inamı ona verən isə həm də dostları, qardaşları və əsl müttəfiqidir.

### Azərbaycan regiondakı gündəmi realizə etmək üçün kifayət qədər münbit resurslara malikdir, o cümlədən, qardaşı Türkiyənin yanında olması ilə

Və bu gün qardaş və müttəfiq Azərbaycan dövləti də bütün mənalarda və bütün hallarda Türkiyənin yanında möhkəm olaraq mövqelənib. O cümlədən, Azərbaycan regiondakı gündəmi realizə etmək üçün kifayət qədər münbit resurslara malikdir, o cümlədən, qardaşı Türkiyənin yanında olması ilə Beləliklə, Türkiyədəki humanitar və təbii fəlakət diqqətləri, hadisələrə həssas yanaşma tərzlərini daha da artırır. Hətta belə desək, bu hadisə qarşıda dayanan məqsədlərin daha tez realizə edilməsinə də şərait yaradır. Bu baxımdan, zəlzələ olayından hər hansı sui-istifadə cəhdini həyata keçirmək istəyən dairələr heç də həvəslənməməlidirlər. Əks halda özləri yarı yolda qalaraq bu dəfə çıxılmaz vəziyyətdə siyasi məğlubiyyətlərinə imza atmalı olacaqlar.

**Rövşən RƏSULOV**






## Şəhidin doğum günündə xatirəsi yad edilib

Fevral ayının 6-da Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, Rayon İcra Hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdir əvəzi Ziya Qurbanov, Aşağı Cürəli kənd ərazi partiya təşkilatının sədri Qalib Bağırov və partiya fəalları Vətən müharibəsində böyük rəşadət və igidlik göstərərək şəhidlik zirvəsinə ucalan Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Mahmudov Cavid Hilal oğlunun doğum günü münasibəti ilə ailəsini ziyarət ediblər. Görüşdə şəhidin şərəfli həyatı və döyüş yolu, torpağa, milli-mənəvi dəyərlərə bağlılığı, müqəddəs şəhidlik zirvəsinə ucalmasından bəhs edilib və şəhid ailəsinin qayğıları ilə maraqlanılıb. Daha sonra kənd qəbiristanlığında şəhidin məzarı ziyarət olunub, ruhuna dualar oxunub. Şəhidin valideyni göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.



# Aİ-nin "mülki missiyasının" tərkibində 70 nəfər Fransa jandarmı da var!



## İddialar təsdiqini tapır - Ermənistan yeni müharibəyə hazırlaşır (?)

**SENSASİYALI İDDİA**

Avropa İttifaqına məxsus monitorinq missiyasının Ermənistana göndərilməsi prosesində iddia edilən faktlar öz təsdiqini tapmaqda davam edir. Belə ki, məhz Fransanın təhriki və təkidi ilə, eləcə də Azərbaycanla heç bir razılaşdırma aparılmadan göndərilən monitorinq missiyasının sözdə mülki, əməldə isə hərbiləşdirilmiş heyətdəki təyinatı da belə qənaətə gəlməyə zəmin yaradır ki, daha əvvəldən irəli sürülən iddialar əslində qeyd edilən reallığı yetərincə əks etdirməkdədir. Fakt budur ki, delimitasiya və demarkasiya olunmamış, yəni qeyri-müəyyən olaraq qalan sərhədlərimiz yaxınlığında müşahidə aparacaq "missiyanın" tərkib hissəsi yalnız avropalı kəşfiyyatçılardan, ordu generallarından, sabiq yüksək rütbəli polis əməkdaşlarından ibarət olmayacaq, bu heyətə paralel olaraq Fransanın müdafiə nazirliyinə məxsus jandarmeriya qüvvələri də daxil olmaqdadırlar.

**Fransanın siyasi-diplomatik kuluarlarında Ermənistanın Azərbaycanla müəyyən olunmamış sərhədlərində aparılacaq monitorinqin işinə hərbi-siyasi kontingent əlavə olunması ilə bağlı qızğın müzakirələr aparılır**

Onu da qeyd edək ki, bugünlərdə Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ölkə medialarından birinə verdiyi müsahibəsində sensasion iddia ilə çıxış edərək bildirib ki, artıq Fransanın siyasi-diplomatik kuluarlarında Ermənistanın Azərbaycanla müəyyən olunmamış sərhədlərində aparılacaq monitorinqin işinə hərbi-siyasi kontingent əlavə olunması ilə bağlı qızğın müzakirələr aparılır. O cümlədən, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrelin də etirafına görə, müşahidə missiyasının tərkibinə 70 nəfərədək fransız jandarmı da daxil olacaq.

**Byuisson həmin informasiyanı bilavasitə Fransa prezidentindən alıb**

Başqa tərəfdən, bu yaxınlarda Fransanın aparıcı "Le Fiqaro" nəşrinin baş redaktoru Jan Kristof Byuisson da belə bir informasiya ilə bölüşüb ki, Fransanın Ermənistana hərbi missiyasını göndərməsi ilə bağlı mümkün variantlar ətrafında müzakirələr aparılır. Bu baxımdan, ehtimal var ki, Byuisson həmin informasiyanı bilavasitə Fransa prezidentindən alıb. Belə ki, yanvar ayının sonunda Emmanuel Makron adıçəkilən jurnalisti Yelisey sarayında qəbul edib və məhz həmin görüşdən sonra Byuisson sözügedən informasiya barədə danışıb, hazırlanan hərbi missiya barəsində fikir irəli sürüb.

**Vitali Arkov: "Müşahidəçi adı altında regiona qərb xüsusi xidmət orqanlarının və hərbi müşavirlərinin gəlmələri artıq aydın görünməkdədir"**

"Bakı avropalı müşahidəçilərin qonşu Ermənistana yerləşdirilməsi ilə bağlı birmənalı olaraq sağlam addım atır". Bu fikirlərlə isə Rusiyanın tanınmış siyasi şərhçisi Vitali Arkov çıxış edib. Onun sözlərinə görə, missiyanın mülki olmayacağı əslində əvvəldən məlum idi və artıq həmin faktlar üzə çıxmağa başlayır. O, hesab edir ki, Aİ-nin tərkibində göndərilən "mülki missiya" heç də mülki deyil və hərbi kontingent xarakterinə daha çox yaxındır. Bu isə regionda sabitliyin əldə olunmasına ciddi maneələr törədə bilər. SİTAT: "Müşahidəçi adı altında regiona qərb xüsusi xidmət orqanlarının və hərbi müşavirlərinin gəlmələri artıq aydın görünməkdədir. Və Bakı ilə İrəvan arasında hazırlanan sülh razılaşması imkanları üzərində işlərin aparıldığı bir zamanda belə bir addımın atılması yeni hərbi təxribatların törədilməsinə hesablanıb. Hansı ki, bunun nəticələri Ermənistanın özü üçün faciəvi sonluq gətirə bilər".

**Rusiyalı politoloq: "Kollektiv Qərbin planı Ermənistandan istifadə etməklə Qafqazda Ukrayna variantını yaratmaqdan ibarətdir"**

Rusiyalı siyasi şərhçi hesab edir ki, bu gün sağlam düşüncəli insanlar aanlayırlar: Qərb və Fransa tərəfindən dəstəklənən Nikol Paşinyan rejimi nəinki qonşularına, habelə erməni xalqının özünə də təhlükə yaradır. SİTAT: "Lakin nə Paşinyanı, nə də onun qərbli xozeyinlərini nəinki erməni xalqının, eləcə də qonşu ölkələrin əhalisinin taleyi, müqəddəratı maraqlandırmır".

Arkova görə, Paşinyan Ermənistanı onun dövründə zəif bəndə çevrilib və Qərbdəki müəyyən güclər onu Rusiyaya, Türkiyəyə və İrana qarşı istifadə etməyə çalışırlar. Məqsəd onların regiondan sıxışdırılıb-çıxardılmasına, zəifləldilməsinə və irimiqyaslı layihələrin realizəsinə imkan verilməməsinə hesablanıb. SİTAT: "Hər şey gün kimi aydındır - kollektiv Qərbin planı Ermənistandan istifadə etməklə Qafqazda Ukrayna variantını yaratmaqdan ibarətdir", deyə rusiyalı politoloq rezümə edib.

Göründüyü kimi, Aİ-nin sözdə mülki missiyası arxasından daha ciddi və təhlükəli qığılcımların saçdığını müşahidə etmək elə də çətinlik yaratmır və bu kimi məsələlərdə biz bir daha riyakarlıq faktorlarını görməyə başlayırıq - əsasən də Fransanın kirli siyasətini. Lakin söz yox ki, əgər onlar Qafqazı ikinci Ukraynaya döndərməyə cəhd göstərərlərsə bu zaman yanlış qərarda olduqlarını da anlamalı olacaqlar. Anlayanda isə çox gec olacaq. Qafqaz heç də onların dişlərinin batacaqları yer deyil!

*Rövşən RƏSULOV*



*Zaman və hadisələr çox məqamların üstünü açır. Yaxşı da ki, açır. Açsın ki, bu xalq dostunu da, düşmənini də tanısın. Bu adamları tanımaq təbii ki, həmişə olduğu kimi, xeyrimizə olar. Zamanın belə hadisələrindən biri də İran İslam Respublikasının Ermənistanı ta Birinci Vətən müharibəsindən silah-sursat, ərzaqla təmin etməsi, bunu İkinci Vətən müharibəsində də davam etdirməsi, Azərbaycanın böyük Zəfərini gözü götürməməsi, buna görə də ermənilərin 10 noyabr Bəyannaməsində üzərinə götürdüyü öhdəlikləri həyata keçirməsinə maneçilik yaratmaları, ümumilikdə Azərbaycana qarşı heç də yaxşı fikirdə olmamaları, açıqca düşmənçilik aparmalarıdır.*

# Əli Kərimli: İranın cəfakeş təəssübkeşi

Uzun illər qonşuluq əlaqələrini gözləyən, münasibətlərin kəskinləşməsinin qarşısını alan Azərbaycan dövləti isə İranın bütün hərəkətlətini açıq şəkildə görsə də, həyata keçirdiyi təxribat xarakterli hadisələrdən xəbərdar olsa da, bütün bunları sakitliklə həll etməyə çalışıb. Lakin İran zaman ötdükcə xislətini, sözün əsl mənasında, gizlədə bilmədi.

İranın ölkəmizə qarşı hansı mövqedə olduğunu yanvarın 27-də baş verən terror aktı bir daha təsdiqləndi. Əvvəlcədən hazırlanmış terror aktının əsl üzünün gizlədilməsi, bunun üçün reallığa əsaslanmayan faktların ortaya qoyulması təbii ki, heç bir həqiqətə sığmadı. Buna əsla inanan da olmadı. Bunun ardınca ölkəmizdə İranın böyük bir casus şəbəkəsinin aşkarlanması, ifşa olunması, onların Azərbaycan dövlətçiliyinin əleyhinə apardıqları fəaliyyəti Azərbaycan ictimaiyyətində heç də birmənalı qarşılanmadı. Hansı ki, ölkəmizin rəhbəri dəfələrlə rəsmi şəkildə İran tərəfə həmin casusların aşkar olunması ilə bağlı xəbərdarlıq etmişdi.

Çox təəssüf ki, bu qədər hadisənin fonunda AXCP sədri Əli Kərimlinin İran təəssübkeşliyi ortaya çıxır. Və dayanmadan-durmadan onları müdafiə etməsinin şahidi oluruq. Yeni damarlarında azərbaycanlı qanı axan (axırsa əgər) bir insan bu qədərmi qansız ola bilərmi? Həm də özünü "partiya sədri", "siyasətçi" kimi təqdim etməkdən usanmayan bu adam ötən 30 ilin də hadisələri fonunda yenə əqidəsindən əl çəkmək istəmir?

Əli Kərimli: "İran rəsmiləri Azərbaycanla bu münaqişəni, mübahisəni dərinləşdirən zaman bir itkilərini də nəzərə almalıdırlar. Dediyim kimi, onlar uzun illər ərzində səy göstəriblər, Azərbaycanda müəyyən bir şəbəkə qurublar. Özlərinə bağlı olan bir şəbəkə var. İstənilən situasiyada İranın mövqeyini müdafiə edən bir şəbəkə var, onları da pis vəziyyətdə qoyurlar".

Bu fikirlər Əli Kərimlinin İran təəssübkeşi olduğunu əsaslı şəkildə təsdiq edir, bu məsələnin bir tərəfi. Digər tərəfdən isə onu hüquq qarşısında cavab verməyə təhrik edir. O mənada ki, Əli Kərimli ifadə etdiyi fikirlər üçün, sözün həqiqi mənasında, cinayətə cəlb olunmalı, həmin casuslarla əlaqəsi olduğunu, onların fəaliyyətindən xəbərdarlığını, onlara sözsüz dəstək olduğunu etiraf etməlidir.

Məsələ ilə bağlı Milli Məclisin deputatı Fazil Mustafanın fikirləri maraqlıdır: "Bu kimi addımlar əslində məqsədyönlü şəkildə edilir. Çünki izi azdırmaq üçün, yaxud da özlərinin bu şəbəkədəki mövcudluqlarını gizlətmək üçün bu yollara əl atırlar. Amma artıq bütün məsələlər göz qabağındadır. Biz belə şeylər edəcək tərbiyəyə malik dövlət deyilik. Bunu ancaq İran edə bilər və özünə rəva bilər. Həm də İranın ilk belə addımı deyil. Bu kimi terroru bütün ölkələrə qarşı da ediblər. Məsələn, Böyük Britaniya səfirliyinə edilən hücum yaddan çıxmayıb. Məsələnin mahiyyəti odur ki, onların yanaşma tərzi dəyişməyib".

Millət vəkili vurğulayıb: "O, elə həmin şəbəkənin içində olanlardan biridir. Guya özü fərqli bir yerdən gəlibmi? Bu günə qədər də ayaqda durmasının əsas səbəbi məhz həmin şəbəkə ilə bağlı olmasıdır. Ona görə də bu cür açıqlamalar verir. Əli Kərimlinin guya Amerika, Avropa dəyərlərənin daşıyıcısı olduğu iddia edilir. Bəs necə olur ki, bu adam həm də İranın bu kimi "dəyərlərinin" təbliğində önəmli rol oynayır? Bu necə ola bilər? Diqqət yetirsək, belə izahat və ya məsləhət verənlərin, hətta sosial şəbəkədə söyüş söyənlərin hamısının mənbəyindən İran çıxacaq. Avropada yaşayan və hədyan yayanlara da bütün şayiə, şantaj, bütün materiallar İran xətti ilə ötürülür. Həmin şəxslər də İran xətti ilə idarə olunurlar. Bunlar hamısı bilinən məsələlərdir. İndiyə qədər bunların çoxu bilinmirdi. Artıq bilinir və ümid edirəm ki, bundan sonra hansısa məsələlərdə korrektələr ediləcək".

Politoloq Qabil Hüseynli: "Onlar insanları İrana agentlik etməyə təhrik edirlər. Belə bir şəraitdə mövcud situasiya dövlətin mövcudluğu ilə bağlı bir məsələdir. Və belə məsələlərlə bağlı çox həssas bir məqamı yaşayırıq. Başqa bir dövlət, İran kimi bizim qanımıza susamış bir dövlət Azərbaycana müxtəlif yollarla sıraət edib dövlətçiliyimizi, milli birliyimizi, Azərbaycanın dinamik inkişaf edən iqtisadiyatına dil uzadır, gözdən salmağa çalışır. Adını siyasətçi qoyan bu kimi şəxslər isə mili dövlətçiliyin yanında deyilsə, İran kimi bir rejimin hansısa mövqelərinə hətta ötəri münasibət bəsləyirsə, əksər hallarda isə ona məsləhətverici statusda dayanırsa, bu, başdan-ayağa siyasi xəyanətdir, milli xəyanətdir. Belə şəxsləri mən heç cür anlaya bilmirəm. Necə yani, müstəqil Azərbaycanı müdafiə etməyib, kimi müdafiə edəcəklər? Beləri özünü siyasi "lider" adlandırır, hətta hakimiyyətə gəlmək xəyalı qurur. Belə olan halda Azərbaycan dövlətçiliyinin qanına susamış bir dövlətin yaramaz hərəkətlərinə bəraət qazandırmağa çalışmaq, yeri gələndə bu hərəkətlərlə bağlı yanlış fikirlər formalaşdırmağa cəhd göstərməyə xəyanətdən başqa ad vermək çətindir".

Bəli, deputat və siyasətçinin Əli Kərimli haqqında söylədikləri fikirlər fonunda demək olar ki, o, sözsüz bu hərəkatın təkan verənlərindən olub. Bizim də deyilənləri təsdiq etməyə əlimizdə əsasımız var. Çünki 30 il əvvəl bu partiyanın Rusiya təəssübkeşi olduqlarının, torpaqlarımızı vəzifə kürsüsündən ötrü satdıqlarının canlı şahidlərindənik. Həmin dövr, zaman və tarix arxada qaldığı üçün Əli Kərimlinin yeni axtarışlarda İranın təəssübkeşi olması heç də qəribə deyil. Lakin Azərbaycan xalqına xəyanət edən hər kim isə, mütləq cəzasını almalıdır. Bu, bütün xalqın tələbidir.

*Mətanət Məmmədova*

# VARDANYAN QAÇDI: kirli portyankaların və tər qoxusu verən uniformaların içində!



*Yaxud, "Vardanyan layihəsi"ni rəsmi şəkildə başa çatmış hesab etmək olar*

Beləliklə, erməni KİV-lərində belə bir informasiya sızıb ki, Rusiyanın Ermənistandakı mövcud Paşinyan iqtidarını devirmək məqsədi ilə hazırladığı və tramplin qismində Qarabağa göndərdiyi Vardanyan layihəsi fiaskoya uğrayıb. Fakt isə budur ki, qanunsuz yollarla Xankəndiyə yerləşdirilən qondarma ”dövlət naziri” Ruben Vardanyan Moskvadadır.




### O, Moskvaya heç də başıdik şəkildə getməyib...

Lakin daha bir fakt da budur ki, Vardanyan Moskvaya heç də başıdik şəkildə getməyib, o sadəcə aradan çıxıb. Artıq bir sıra etibarlı məlumat mərkəzləri də qeyd edirlər ki, Vardanyan Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları kontingentinə (RSK) məxsus yük maşınlarından birinin banında qaçıb, özü də hərbçilərin utilizasiyaya verilmiş uniformalarının içində - kirli portyankaların, tər qoxusu verən alt paltarlarının arasında. Necə deyərlər, onlarla birlikdə utilizasiyaya məhkum olunub...

Daha sonra isə onu İrəvanın ”Zvartnots” hava limanından Moskvaya göndəriblər ki, getsin xozeyinlərinə uğursuzluqlarının səbəblərini izah etsin. Artıq bütün bu reallıqları nəzərə almaqla nəticə hasil edə bilərik ki, ”Vardanyan layihəsi”ni rəsmi şəkildə başa çatmış hesab etmək olar. Özü də Azərbaycan xalqının, ən əsası isə Müzəffər Ali Baş Komandanın dəmir iradəsi hesabına!

TƏRS BAXIŞ-ÖZƏL

### ”Casus belli” səviyyəsi

Yox, əgər Vardanyan yenidən xozeyinlərinin əmri ilə ikinci dəfə Qarabağ geri dönməyə cəhd edərsə, hansı ki, bu cəhdin özü çox az ehtimallıdır, bax onda həmin addım rəsmi Bakı tərəfindən ”casus belli” (Roma hüququ dövründə irəli sürülmüş hüquqi termin. Müharibə elan etmək üçün formal səbəb. Müasir tarix elmində geniş istifadə olunaraq, müharibəyə daxil olmaq şərtini bildirən ”casus foederis”lə müqayisə edilir -R.R.) səviyyəsində ölçüləcək, eləcə də Silahlı Qüvvələrimizin müvafiq qaydalı və ildırım sürətli fəaliyyəti ilə nəticəsini tapacaq. Buna isə qətiyyən və əsla (!) şübhə yoxdur!

**Rövşən RƏSULOV**




# Bəzən bir foto belə böyük məhəbbətdən söhbət açır...






Söyləyir ki, biz iki ayrı-ayrı dövlət olsaq da, bir millətik. Söyləyir ki, biz ayrı-ayrı ürəklərdə olsaq da, bir döyünürük. Söyləyir ki, heç bir sərhəd məhəbbətin, sevginin qarşısını ala bilməz, sevgi bütün hüdudları yarıb keçir. Söyləyir ki, biz sevincdə də, kədərdə də sizinləyik, Türkiyəmiz!

Matəminiz matəmimizdir... Bütün Azərbaycan kədərinizə şərikdir. Hər addımda, gecədə, səhərdə, küçədə, iş yerində, evdə hər an bu böyük fəlakətdən söhbət açılır. Hər kəs kədər içərisində sizlərin yanındadır. Əlindən gələni etməyə çalışır ki, kədərinizə, faciənizə bir təsəlli olsun. Türkiyəmiz, türk qardaş və bacılarımız, gənc, körpə balalarımız, biz sizinləyik, hər zaman, hər vaxt, hər an!

Aktual

**Mətanət Məmmədova**

# “Moskvanın provokatoru” Qarabağa buraxılmamalıdır”

“Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda keçirdiyi etiraz aksiyası dəfələrlə qeyd olunduğu kimi, Azərbaycan ictimaiyyətinin Rusiya sülhməramlılarının yerləşdiyi Azərbaycan ərazilərində həyata keçirilən qeyri-qanuni iqtisadi fəaliyyətə, təbii sərvətlərin talanmasına və ekologiyaya dəyən zərərə haqlı narazılığının nəticəsidir”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.



Onun sözlərinə görə, ötən ilin 3 dekabr tarixindən etibarən Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət heyət sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıb: ”Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, ətraf mühitə potensial risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması tələb olunub. Əldə olunmuş razılığa uyğun olaraq, 10 dekabr tarixində faydalı qazıntıların qanunsuz istismar olunduğu ərazilərə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə Ruben Vardanyanın dəstəsi tərəfindən maneçilik törədilib. Yalnız bundan sonra Xankəndi-Laçın yolunda QHT fəallarının etiraz aksiyası başlayıb və tələblərimizə əməl olunmayana qədər bu aksiya davam edəcək”.

A.Səmədov onu da bildirdi ki, aksiya iştirakçılarının tələbləri çox sadədir: ”Azərbaycan mütəxəssisləri tərəfindən qanunsuz istismar olunan yataqlarda monitorinq keçirilməsinə şərait yaradılmalıdır. Ruben Vardanyanın idarə etdiyi ermənilərdən ibarət bir qrup başıpozuq dəstə buna nəyin bahasına olursa-olsun mane olmağa çalışır. Çünki anlayırlar ki, monitorinqin keçirilməsi Qarabağ üzərində Azərbaycanın suverenliyinin qəbul edilməsi və ərazi bütövlüyümüzün etiraf olunmasıdır. Ermənistan rəhbərliyi ötən il Praqada və Soçidə imzalanan sənədlərə qol çəkməklə bu reallığı qəbul etdi və Ruben Vardanyanın idarə etdiyi Qarabağ ermənilərinin də bu reallığı qəbul etməkdən başqa çarəsi yoxdur. Erməni saytları Vardanyanın Qarabağdan qaçdığını və Moskvadakı ”ağalarının” yanına getdiyini yazırlar. Güman edirəm ki, o geriyə qayıtmağa cəhd göstərərsə, bunun qarşısı alınmalı və ”Moskvanın provokatoru” Qarabağa buraxılmamalıdır”.

**Gülyana**

*Zəlzələ ölkələri sırasında olan Türkiyə, bu dəfə də Kahramanmaraşda baş verən zəlzələ ilə sarsılıb. Sosial şəbəkələrdə bəzi istifadəçilər ev heyvanlarının və sahibsiz heyvanların zəlzələdən əvvəl israrla səs-küy saldıqlarını bildiriblər. Bu, o deməkdir ki, heyvanlar zəlzələni hiss edir? Mütəxəssislər bu suallar barəsində araşdırma ediblər.*

# Heyvanlar zəlzələni hiss edirmi?

### Heyvanlar zəlzələni hiss edir?

İnsanlar 20-20 min herts diapazonunda səsləri qəbul edə bilirlər. Əksər seysmik dalğaların tezliyi 20 herts-dən azdır. Buna görə də dalğaların özləri çox vaxt eşidilmir. Belə zəlzələlərdə insanların eşitdiyi səs-küy daha çox binaların sınması nəticəsində yaranır. Digər tərəfdən, eşidilən diapazonda zəlzələlər mümkündür. Bunlar gurultu kimi eşidilə bilər.

Bəzi insanlar itlərin və ya pişiklərin insanların eşitmədiyi zəlzələ səslərini və ya titrəmələri hiss edə bildiyinə inanırlar. Lakin ekspertlərin fikrincə, bu, təsdiqlənmiş məlumat deyil.





Bəzi heyvanların davranışında dəyişikliklər zəlzələlərdən əvvəl müşahidə oluna bilər. Lakin bu davranışlar, elm adamlarına görə, ardıcıl deyil və çox vaxt zəlzələdən əvvəl davranışda hiss olunan dəyişiklik olmur. Bütün bunlarla yanaşı, bəzi tədqiqatlar da göstərir ki, heyvanlar zəlzələni hətta baş verməmişdən bir neçə gün əvvəl hiss edə bilirlər. Türk Baytarlıq Daxili Xəstəliklər və Psixologiya Mütəxəssisi Professor H.Tamer Dodurka "Heyvanların davranışını müşahidə etməklə zəlzələnin dəqiq vaxtını anlamaq mümkün deyil. Lakin zəlzələnin yaxınlaşması ilə bağlı siqnallar almaq mümkündür", - deyə o bildirib.

Elmi araşdırmalarla, hissetmə qabiliyyəti insanlardan çox yüksək olan heyvanların zəlzələdən bir neçə gün əvvəl zəlzələnin yaratdığı elektromaqnit sahəsini qorxutduğu məlum bir həqiqətdir. 1996-cı ildə Osaka Universitetinin Yer və Kosmos Elmləri laboratoriyasında aparılan təcrübədə süni şəkildə yaradılmış elektromaqnit sahəsinə yerləşdirilən heyvanların reaksiyaları tədqiq edilərkən heyvanların zəlzələni əvvəlcədən hiss etdikləri, çaxnaşma halında qaçdıqları və narahat olduqları sübut edilmişdir.

### İtlər ən həssas heyvanlardan biridir

Bütün böyük zəlzələlərdə zəlzələdən bir neçə gün əvvəl başlayan heyvanlarda qəribə hərəkətlərin qeydə alındığını ifadə edən Baytar Daxili Xəstəliklər və Psixologiya Mütəxəssisi Hamer Dodurka, "İzmit və Bolu zəlzələlərindən əvvəl minlərlə insanımız heyvanlardakı bu qəribə davranışlara şahid oldu. 17 avqust zəlzələsindən sonra aparılan araşdırmalar zəlzələdən əvvəl bir çox fövqəladə hadisələrdən bəhs etmiş və onların demək olar ki, yarısı heyvanlarla əlaqəli olmuşdur. Hansı heyvan növünün daha çox reaksiya verdiyi elmi olaraq açıqlanmayıb. Balıqların və sürünənlərin daha həssas olduğuna dair ipuçları var, amma ən çox itlərin reaksiyaları gündəmə gətirilir. Bunun mümkün səbəbi bu heyvanların bizim yaxın ətrafımızda olmasıdır. Yenə də bəzi tədqiqatçılar iti ən həssas heyvanlar arasında sayırlar. Beləliklə, itlərin reaksiyalarının zəlzələ xəbərçisi kimi istifadə oluna biləcəyi ilə bağlı mübahisələr yaradır" deyib.

H. Tamer Dodurka deyib: "Bilirik ki, itlər saniyədə 20 min ilə 80 min vibrasiya arasında olan səsləri asanlıqla eşidə bilirlər. Odur ki, yerin altındakı titrəyişlərin insanları silkələmək səviyyəsinə çatmamış itlər tərəfindən eşidilməsi təəccüblü olmamalıdır".

### Suda yaşayan heyvanlar da zəlzələni hiss edir?

H. Tamer Dodurka "Su heyvanları suda kimyəvi dəyişikliklərə son dərəcə həssas olduqları üçün zəlzələni əvvəlcədən asanlıqla hiss edə biləcəklərini düşünürlər" deyib.

Zəlzələ proqnozu mərkəzlərində heyvanların davranışlarından necə istifadə edildiyi barədə məlumat verən Prof. Dr. Dodurka, "Ümumiyyətlə iki üsuldan istifadə olunur, birincisi, mobil şəbəkələr vasitəsilə təbiətdə məlumat ötürən müşahidəçilər şəbəkəsi yaratmaq, ikincisi isə nəzarət edilən şəraitdə saxlanılan heyvanların davranışlarını izləməkdir. Bu tədqiqatlar arasında biz ən yaxşı nümunəni Çində görə bilərik. Çin Dövləti 1970-ci ildən etibarən mümkün zəlzələyə qarşı kütləvi hazırlıq proqramına başlayıb. 1974-cü ildə zəlzələ gözləntisi artdıqda, heyvanların davranışı, su ehtiyatları, hava və suyun temperaturu, bitkilər kimi zəlzələnin mümkün prekursorlarını müşahidə etmək üçün mindən çox müşahidəçi təyin edildi. 1974-cü ilin dekabrında heyvanların hərəkətindəki anomaliyalara görə yaşayış məntəqələri boşaldılmış və baş vermiş 7,3 bal gücündə zəlzələ nəticəsində heç kim xəsarət almamış, 10 milyon insan mütləq ölümdən xilas edilmişdir. Lakin sonrakı zəlzələlərdə heyvanlar eyni performansı göstərmədilər".





Mütəxəssis sözlərinə belə davam edib: "Biz heç vaxt bir heyvanın reaksiyasına etibar edə bilmərik. Çünki zəlzələlərin xüsusiyyətləri və heyvanların zəlzələlərə reaksiyaları standartlaşdırılmamışdır. Bəzi heyvanlar heç bir zəlzələyə reaksiya verməyə bilər, bəziləri də əksinə. Müşahidələr heyvanların davranışı ilə bağlı təcrübəsiz və qərəzli insanlar tərəfindən aparıla bilər. Bu, səhv şərhlərə səbəb ola bilər. Cavablar zəlzələ üçün xüsusi olmaya bilər. Başqa sözlə, heyvanlar da meteoroloji hadisələrə oxşar reaksiyalar verə bilirlər".

### Zəlzələnin hava və zamanla bağlılığı var?

Qədim yunanlar zəlzələlərin xüsusilə isti, quru havalarda baş verdiyinə inanırdılar. 17 Avqust 1999-cu il zəlzələsindən sonra da bu inancda olan insanlar var. Lakin ekspertlər bunu qəti şəkildə rədd edirlər.

Eynilə, güclü təkanların həmişə səhər baş verdiyini düşünənlər var. Digər tərəfdən, tarixdə axşam saatlarında baş verən zəlzələlər də az deyil.

### Zəlzələ zamanı təhlükəsiz yer qapı arxasıdır?

Alimlər deyirlər ki, qapı eşikləri ancaq kərpiç evlərdə qorunma təmin edə bilər. Çünki müasir binalarda qapılar binanın qalan hissəsindən möhkəm deyil.

Əksinə, ictimai binalarda tələsik bayıra çıxmaq istəyənlər qapının ağzına sığınanları əzə bilirlər. Mütəxəssislərin tövsiyəsinə görə, zəlzələ zamanı içəridə olanların paltaryuyan və ya qabyuyan maşın kimi ağ əşyaların yanında əyilmələri daha məntiqlidir.

Xatırladaq ki, fevralın 6-da yerli vaxtla saat 4:17-də Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, saat 13:24-də isə Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ qeydə alınıb. Türkiyədə ötən gün baş verən zəlzələ nəticəsində həlak olanların sayı 2 921 nəfərə, təbii fəlakət zamanı yaralananların sayı isə 15 834 nəfərə çatıb.

*Ayşən Vəli*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Dini siyasətə alət edənlər

## *Azərbaycan özünün tolerantlıq modeli ilə dünyada örnək ölkələrdən biridir*



***Azərbaycanda dini tolerantlıq hökm sürür və hansısa inancı seçdiyinə görə heç kimə problem yaradılmır. Dünyəvi dövlət olaraq sivil, demokratik bir cəmiyyətə malik Azərbaycanda hüquqa söykənən idarəçilik var. Azərbaycanda dini etiqad, vicdan azadlığı təmin olunub, hər bir şəxsin hüquq və azadlıqlarına ölkə Konstitusiyası və dövlət tərəfindən təminat verilir.***



Dini qurumların qanunla qadağan olunmayan fəaliyyətlərini həyata keçirmək üçün hər hansı məhdudiyyət tətbiq olunmur. Bununla yanaşı, bəzi dindarların fəaliyyəti, onların əməlləri islam dininin qanunlarına, milli-mənəvi dəyərlərimizə, əxlaq normalarımıza ziddir və vətəndaşlarda dinə qarşı mənfi münasibətin formalaşmasına şərait yaradır. Üstəlik, belə qüvvələr dövlətçiliyimiz üçün də ciddi problem yaradır.

### Azərbaycanda dini qurumlara maliyyə yardımı ayrıldı

Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı haqqında sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılsın.

Göründüyü kimi, dövlət dini icmaların rahat fəaliyyəti üçün hər cür imkanlar yaradır. Onların maliyyə vəsaitləri ilə, avtomobillə təmin olunmasını, dini məbədlərin tikilməsi və təmirini dövlət öz üzərinə götürüb. Bu, dünyada çox az ölkədə belədir. Lakin dövlətin bu qayğısından bəziləri başqa məqsədlər üçün istifadə etməyə çalışır ki, bu da yolverilməzdir. Hər bir dini icma mənsub olduğu ölkənin, xalqın mənafeyini üstün tutmalıdır, nəinki xarici mərkəzlərin sifarişi ilə neqativ əməllərlə məşğul olsun.

### Ölkəmiz özünün dövlət-din münasibətləri modeli ilə dünyanın ən yaxşıları sırasındadır

Hazırda Azərbaycanda dini sabitlik kifayət qədər yüksək səviyyədədir. Dövlətimiz vətəndaşların vicdan azadlığının qorunması üçün üzərinə düşən bütün vəzifələri qətiyyətlə həyata keçirir. Bunun məntiqi nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri müasir qanunvericilik səviyyəsində tənzimlənir, dini etiqad azadlığı tam qorunur, tolerantlıq daha da möhkəmlənir.

Heç kim dininə və əqidəsinə görə təzyiqlərə məruz qalmır, dini mənsubiyyətə görə ayrı-seçkilik aparılmır. Azərbaycanda dövlət-din münasibətləri möhkəm qanunçuluq bazası üzərində qurulub. Təsadüfi deyil ki, artıq ölkəmiz özünün dövlət-din münasibətləri modeli ilə təkcə yerləşdiyi coğrafi regionun deyil, dünyanın ən yaxşıları sırasındadır.

Azərbaycanda yaradılmış tolerant durumdan yararlanan bəzi qüvvələr öz çirkin məqsədlərini həyata keçirməyə çalışırlar. Əminliklə demək olar ki, qanunazidd əməllərlə məşğul olan belə qrupların dinlə heç bir əlaqələri yoxdur. Onlar xarici radikalların buradakı ruporu olmağın müqabilində maliyyə vəsaiti ilə təmin olunur və təlimatlandırılırlar.

Azərbaycan cəmiyyəti bu kimi məsələlərə qarşı həmişə prinsipial mövqedə dayanıb. Çünki Azərbaycan bu gün ötən əsrin 90-cı illərinin əvvəllərindəki dövlət deyil. İndi dövlətimiz kifayət qədər güclü, cəmiyyətimiz isə kifayət qədər yüksək inkişaf etmiş, intellektual cəmiyyətdir.

Azərbaycanı sevməyən bəzi qüvvələrin ruporu olan və dini sferada təmsil olunan bu qrupların maliyyə vəsaitləri ilə təmin edilməsi istisna deyil. Çünki belə işlərlə məşğul olmaq üçün də maliyyə lazımdır. Bu qrupların əksəriyyətinin satın aldıqları, yaxud kirayələdikləri ofisləri, media orqanları və başqa təbliğat vasitələri var. Bütün bunları idarə etmək üçün kifayət qədər böyük maliyyə vəsaiti lazımdır. Müşahidələr göstərir ki, bu qruplara daxil olan insanların konkret gəlir mənbəyi də yoxdur. Ölkəmizdə təxribatçılara maliyyə ilə kömək edəcək insanların olması da inandırıcı deyil. Bu amillər onların kənardan maliyyələşdirilməsinə inanmağa əsas verir. Xüsusilə də cənub qonşumuzdan.

### Gilavar özü ilə təkcə isti küləklər gətirmir, həm də soyuq qonşuluq ab-havası gətirir

Bu proseslərin konkret olaraq İrandan qaynaqlandığına heç kimin şübhəsi yoxdur. Düzdür, bu məsələdə (ölkədə radikal dindarlığın və mövhumatın güclənməsində) bəzi başqa ölkələrin və Qərb dairələrinin də böyük rolu var, amma ən böyük payın İrana aid olduğu şübhəsizdir. Tehran Azərbaycan müsəlmanlarının böyük əksəriyyətinin şiə məhzəhinə aid olmasından öz siyasi məqsədləri üçün istifadə etməyə çalışır.

İranın indi ən təhlükəli dövrüdür. Ətrafındakı əksər qonşularından ona qarşı təhlükə axır. Ərəb inqilabları bəzi ərəb ölkələrində rejimləri dəyişsə də, İrana qarşı münasibəti zərrə qədər də dəyişməmişdir. Əksinə, indi İran özünü daha az təhlükəsiz hesab edir.

Suriya məsələsinə görə İran-Türkiyə münasibətlərində gərginlik açıq görünür. Belə vəziyyətdə İrana qarşı aşkar "müharibə" deyən dövlətlər olduğu halda Tehran Azərbaycana, onun rəhbərliyinə hədə-qorxu gəlməyə başladı. Azərbaycan İranın o qonşusudur ki, İrana qarşı təhlükə yaratmır və təhlükənin yaranmasında iştirak etmir. İran tərəfinin Azərbaycan Respublikasının daxilində, o cümlədən Qarabağda Allahı, ədaləti, məntiqi, normal qonşuluğu danaraq gördüyü işlər də Azərbaycanı ona qarşı düşmən mövqeyə keçirə bilməmişdir.

ABŞ-ın və İsrailin İranı çökdürmək üçün onun ətrafında qurduğu halqanın bağlanması lazımdır. Azərbaycan İran ətrafındakı halqanı qapayan, bağlayan dövlətdir, amma halqanı qapamır. Antiiran aksiyalarda iştirak etməməklə Azərbaycan özünü Qərb koalisiyası tərəfindən təzyiqlərə məhkum edir. Lakin Azərbaycanın bu fədakarlığı İran tərəfindən layiqincə qiymətləndirilmir. Deyəsən Azərbaycanın sürətlə hərbi, iqtsadi cəhətdən möhkəmlənməsi, siyasi nüfuzunu artırması, regionda söz sahibinə çevrilməsi Tehranı yaman narahat edir.

Radikal dindarları tabe olduğu siyasi-ideoloji mərkəzlər onların vasitəsilə cəmiyyətdə parçalanma və qarşıdurmalar yaratmağa cəhd edirlər. Belə dini icmaların arxasında xarici dövlətlərin kəşfiyyat orqanların dayanması faktları da vardır.

Dövlət Təhlükəsizlik Xidmətinin son günlərdə İran agentura şəbəkəsini ifşa etməsi bəzilərinə dərs olmalıdır. Anlamalıdırlar ki, Azərbaycan, dövləti möhkəm, cəmiyyəti sağlam bir ölkədir. Azərbaycan monolit dövlət, vahid xalq, tolerant cəmiyyət modelini seçib və bu yoldan dönməyəcəyini ortaya qoyub. Azərbaycanda xalq və dövlət arasında qırılmaz bağlar var ki, bunu heç bir daxili və xarici qüvvə qoparmaq iqtidarında deyil.

Azərbaycan hüquqi, demokratik inkişaf yolu ilə sürətlə irəliləyən ölkədir və hər hansı dini qrupların, onların xarici havadarlarının sabitliyi pozmaq, əhali arasında çaxnaşma yaratmaq, din adından istifadə edib öz bəd niyyətlərini həyata keçirmək cəhdləri heç bir səmərə verməyəcək.

### Azərbaycanda dini qarşıdurma üçün heç bir əsas yoxdur və olmayacaq

Təəssüf ki, XXI qloballaşma əsrində, elm və texnikanın inkişaf etdiyi müasir dövrdə bəzi yerli və xarici qüvvələr hələ də müxtəlif vasitələrdən, o cümlədən din amilindən istifadə etməklə ölkəmizi dini cəhalətə sürükləməyə çalışırlar.

Özü də missionerlər xüsusilə gəncləri hədəf olaraq götürürlər. Son vaxtlar bəzi gənclərin radikal mövqe ortaya qoymaları (məsələn, dindar müsəlman olmayanlara qarşı təhqirlər) anlaşılan deyil. Bütün dünyada olduğu kimi, Azərbaycanda da, başqa dinlərə (xristianlıq, buddizm, zərdüştlük, iudaizm, krişnaizm və s.) inananlar, hətta ateistlər və ya deistlər var və onlar əhalinin önəmli bir hissəsini təşkil edirlər.

Yaradanla hər kəsin ruhi və mənəvi olaraq xüsusi münasibəti var. Heç kim başqaları üzrəində vəkil edilməyib, hətta peyğəmbərlər belə belə missiyalarının olmadığını deyiblər. İnsan hüquq və azadlıqları hər şeydən yüksəkdə dayanır. Kiməsə yalnız məsləhət və tövsiyə vermək olar, amma hər kəsin inancına (və ya inancsızlığına) hörmət edilməlidir.

Bəli, Azərbaycanda dini tolerantlıq hökm sürür və hansısa inancı seçdiyinə görə heç kimə problem yaradılmır. Əlbəttə, ölkədə dini dözümlülük və tolerantlıq ab-havasının saxlanılmasının təmin olunması olduqca vacib məsələdir. Bu amil dövlətçiliyimizin qorunmasında və inkişafında önəmli rol oynayır. Ancaq hansısa təriqətə bağlılıq, dövlət maraqlarından üstün tutulmamalıdır.

Dini fəaliyyət üçün ölkədə heç bir maneə olmasa da, dini maariflənmənin aşağı olması səbəbindən müəyyən problemlər də yaranır. Belə ki, bəzi insanlar din haqqında səhv mülahizələr yürüdür və dinin tələblərini öz təriqətlərinə uyğun şəkildə izah edirlər. Bu da təriqətlər arasında münaqişəyə səbəb olur. Bu, həm dinə, həm də dövlətimizin məqsədlərinə zidd olan bir məsələdir.

Bəziləri, hətta dini ekstremizm fəaliyyətindən çəkinmir, açıq radikal çıxışlar edir, özlərinə tərəfdar toplamağa çalışır, dindar, mömin pərdəsi altında dünyagörüşü hələ tam formalaşmamış gənclərdən, sıravi vətəndaşlardan sui-istifadə edir, onları dövlətə qarşı yönəltmək istəyirlər. Azərbaycan monolit dövlət, vahid xalq, tolerant cəmiyyət modelini seçib və bu yoldan dönməyəcəyini ortaya qoyub. Azərbaycanda xalq və dövlət arasında qırılmaz bağlar var ki, bunu heç bir daxili və xarici qüvvə qoparmaq iqtidarında deyil.

***Elçin Bayramlı***



*"Mövsümi xəstəliklərdən qorunmaq üçün birinci növbədə bol vitamin və minerallarla zəngin qidalarla qidalanmaq lazımdır. Xüsusilə də buna mövsümi meyvə-tərəvəzlərdən nar, sitrus meyvələri, limonu misal göstərə bilərik. Ümumiyyətlə C vitaminin qəbuluna xüsusi diqqət yetirməliyik".*

Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib. Onun sözlərinə görə, bu vitamin insan orqanizmi tərəfindən ifraz orqanizm üçün çox faydalıdır.

Balın faydası da hər kəsə məlumdur. Xüsusilə də təbii və çiçək balı daha çox faydalıdır. Hər gün bir çay qaşığı qədər qəbul olunması tövsiyə olunur.

# Xəstəliklərdən qorunmaq üçün necə qidalanmaq lazımdır?



olunmur: "Hər gün bir kivi qəbul olunması immun sisteminin gücləndirməsinə və orqanizmn mövsümi xəstəliklərdən qorunmasına kömək olur. Tərəvəzlərdən isə brokoli C vitamini ilə zəngindir.

Əgər halsızlıq və xəstəlik baş veribsə, mütləq şəkildə yağlı, qızardılmış qidalardan uzaq durmaq və bol maye qəbul etmək mütləqdir. Maye həm bitki dəmləmələri ilə çay şəklində ola bilər, həm də su kimi qəbul oluna bilər. Zəncəfilli dəmləmələr

Digər məqamlardan biri isə soğan və sarımsağın mütəmadi olaraq istifadə olunmasıdır. Onların tərkibində də mikrob öldürən maddə var. Hansı ki, bu maddə orqanizmdəki iltihabların qarşısını alır. Xüsusilə də gündəlik iki-üç diş sarımsaq qəbulu çox faydalıdır. Kərə və ya təbii nehrə yağı da faydalıdır. Çünki bu yağlar A vitamini ilə zəngindir.

Mənşəyi bəlli olmayan, kənarda bişirilən qidalardan da mümkün qədər uzaq durmaq lazımdır. Çünki həmin qidalar satış üçün hazırlanır və buna görə də qida dəyəri olduqca aşağı olur. Hətta orqanizm üçün zərərli hesab olunur. Hər gün bir stəkan ev şəraitində hazırlanmış qatıqdan da istifadə etmək orqanizmdə, xüsusilə də bağırsaq sağlamlığında mühim əhəmiyyət daşıyır".

***Səbinə Hüseynli***

# Bu şəxslərə Azərbaycanda daimi yaşamaq icazəsi veriləcək

***Atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan vətəndaşı olanlara daimi yaşamaq icazəsi veriləcək. SİA-nın xəbərinə görə, bu, Miqrasiya Məcəlləsinə dəyişiklik layihəsində əksini tapıb.***

zəsi almadan haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq, gələcəkdə Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi üçün müraciət etmək imkanı və digər geniş imkanlar ya-



Belə ki, Məcəllənin 46-cı maddəsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlər sadalanır. Yeni layihəyə əsasən bu sənədlər siyahısına, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin və ya müraciətlə əlaqəli hüquqi şəxsin son 1 ildə təqdim etdiyi bəyannamə üzrə dövriyyəsinə dair vergi orqanından əldə edilmiş sənəd daxil edilir.

Miqrasiya Məcəlləsinin 52.1-ci maddəsində əsasən bu Məcəllənin 45.1.1-45.1.7-ci maddələrində nəzərdə tutulmuş əsaslarla müvafiq icazə əsasında son 2 il ərzində fasiləsiz olaraq Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (bu Məcəllənin 45.1.8-45.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvü olduğuna görə müvəqqəti yaşamaq üçün icazə almış şəxslər istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər. Qeyd olunan maddə təkmilləşdiriləçək yeni redaksiyada verilir.

Belə ki, Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin əcnəbilərə ölkə ərazisində uzun müddət yaşamaq, icaradır. Bu baxımdan həmin mexanizmin təkmilləşdirilməsi zəruridir. Bundan başqa, qabaqcıl ölkələrin təcrübələrinə əsasən əcnəbilər yüksək ixtisaslı mütəxəssis və ya ərazisində olduğu ölkənin vətəndaşı ilə birinci dərəcəli (ata, ana, ər (arvad) və övlad) yaxın qohum olarsa, həmin ölkə ərazisində daimi yaşamaq icazəsi almaq imkanı verilir. Bu baxımdan qohumluq münasibətlərinə görə daimi yaşamaq icazəsinin alınması üzrə qohumların dairəsinin məhdudlaşdırılması və yalnız müraciət edən şəxsin atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan Respublikasının vətəndaşı olduqda daimi yaşamaq icazəsi ala bilməsi təklif olunur.

# XƏBƏRDARLIQ: Güclü şaxtalar gəlir!

***Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, fevralin 9-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Güclü şimal-qərb küləyi günün ikinci yarısında mülayimləşəcək.***



Havanın temperaturu gecə 0-2° şaxta, gündüz 1°-dək isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunundan 777 mm civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, fasilələrlə sulu qar, qar yağacağı gözlənilir. Əsasən, dağlıq və dağətəyi rayonlarda intensiv olacağı ehtimalı var. Arabir duman olacağı, Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-4° isti, gündüz 4-7° isti, dağlarda gecə 10-15° şaxta, gündüz 3-8° şaxta olacaq. Yollar buz bağlayacaq.

# Ağstafada 13 yaşlı oğlan intihar etdi

***SİA-nın məlumatına əsasən, Ağstafa rayonunda intihar hadisəsi baş verib. Hadisə rayonun Köçəsgər kəndində qeydə alınıb. Kənd sakini, 2010-cu il təvəllüdlü Elgün Pərviz oğlu Qocayev yaşadığı evin həyətində özünü asıb.***

Yeniyetmənin özünə qəsd etməsinin səbəbləri, hələlik, məlum deyil. Faktla bağlı araşdırma aparılır.



# Azərbaycan neftinin qiyməti 85 dolları ötüb



**Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 2,74 ABŞ dolları, yaxud 3,32 % artaraq 85,34 ABŞ dolları təşkil edib. Bu barədə SİA-ya neft bazarındakı mənbə məlumat verib. Hərraclarda "Brent" markalı neftin aprel fyuçersləri 83,69 ABŞ dollarına satılıb.**

**Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 50 ABŞ dollarından hesablanıb.**

**Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 %-dir.**

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**